AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 16 (1416), 16 - 22 aprel 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.



## Avropa Gənclər Olimpiya Festivalının məşəli Azərbaycana ötürülüb

Aprelin 12-də İtaliyanın paytaxtı Romada, IX əsrdə dostluq və qardaşlıq simvolu olaraq İmperator Avqusto tərəfindən tikilmiş Ara Pasis muzeyində bu il iyulun 20-28-də Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalının məşəlinin yandırılması və Azərbaycana ötürülməsi, eyni zamanda, oyunların simvolu olan kiçik "zeytun ağacı"nın Azərbaycana təqdim edilməsi mərasimləri keçirilib.

Tədbirdə Azərbaycanı Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman naziri Azad Rəhimov, MOK baş katibinin müavini Azər Əliyev və Avropa Gənclər Olimpiya Festivalına məsul digər rəsmilər təmsil ediblər.

Proqrama əsasən əvvəlcə nazir Azad Rəhimov, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, Avropa Olimpiya Komitələrinin (AOK) prezidenti Janez Koçijançiç, AOK Koordinasiya Komissiyasının sədri Corce Vizaski, İtaliya Olimpiya Komitəsinin prezidenti Ciovanni Malaqonun iştirakı ilə mətbuat konfransı keçirilib. Müxtəlif media qurumlarının iştirakı ilə təşkil edilən mətbuat konfransında Bakıda iyulda keçiriləcək 15-ci Avropa Gənclər Olimpiya Festivalına hazırlıq prosesi, görülmüş işlər və nəzərdə tutulan planlarla bağlı suallar verilib.

(ardı 3-cü səhifədə)

## Azərbaycan güləşçiləri Avropa çempionatını 13 medalla başa vurdular

Güləş üzrə Azərbaycan yığması Rumıniyanın paytaxtı Buxarestdə keçirilən güləş üzrə Avropa çempionatında uğurla çıxış edib. Yarışda sərbəst güləşçilərimiz Hacı Əliyev və Cəbrayıl Həsənov 3-cü dəfə Avropa çempionu adına layiq görülüblər. Olimpiya və dünya çempionu Şərif Şərifov isə ilk dəfə Avropa birincisi olub.

Baş məşqçi Saypulla Absaidov və böyük məşqçi Zəlimxan Hüseynovun rəhbərliyi altında sərbəst güləş yığmamız 10 idmançı ilə mübarizə aparıb.

Üçqat dünya və ikiqat Avropa çempionu Hacı Əliyev startda Belarus, daha sonra Ermənistan idmançısına qalib gəlib. 1/4 finalda Rusiya güləşçisinə də gücünü göstərən Hacı adını yarımfinala yazdırıb.

(ardı 3-cü səhifədə)



## Anons

### Xəzər İsayev:

"Azərbaycan Beynəlxalq Ədalətli Oyunlar Hərəkatında yüksək fəaliyyəti ilə seçilir"

Səh. 2

Ədalətli İdman Günü ilə əlaqədar seminar

Səh. 3

Paralimpiyaçı cüdoçulardan ibarət yığmamızın üzvləri ilə görüş

Səh. 3

Qəşəm Nəcəfzadə:

"Poeziyada ən yaxşı misra, qapıya vurulan qol kimidir"

Səh. 4

Karateçilərimiz yeni sınaq qarşısında

Səh. 5

Yığma komandamız Sloveniyaya yollanacaq

Səh. 6

"Neftçi" zirvəni əldən verdi

Səh. 7

## Olimpizm

### Tomas Bax Vudsu təbrik etdi

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax dünyanın tanınmış qolf ustası Tayger Vudsu "Masters" turnirində qazandığı qələbə münasibəti ilə təbrik edib.

BOK rəhbəri idmançını Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak etməyə dəvət edib: "Səni ürəkdən təbrik edirəm. 14 ildən sonra yenidən "Masters" turnirinin qalibi olmağı bacardın. İndi Tokio-2020 Olimpiadasına köklənmək zamanıdır. Səni səbirsizliklə bu yarışda gözləyirəm".

Məlumat üçün bildirək ki, qolf 1900 və 1904-cü illərdə Olimpiya oyunlarında nümayiş etdirilib. BOK-un 121-ci sessiyasında bu idman növü yenidən Rio-2016 və Tokio-2020 Olimpiadasının proqramına daxil edilib.

### Yaponiyalı nazir təşkilat komitəsindən getdi

Yaponiyanın kiber təhlükəsizlik naziri Esitaka Sakurada öz vəzifəsindən istefa verib. O, həm də Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunları Təşkilat Komitəsində fəaliyyət göstərirdi.

Esitaka Sakuradanın istefa verməsinə səbəb opponentlər tərəfindən tənqidə məruz qalması olub. Belə ki, o, deputat Xineko Takaxasinin şərəfinə keçirilən görüşdə xoşagəlməz ifadə işlədib: "Takaxasi 2011-ci ildə sunamidən əziyyət çəkən regionların bərpasından daha vacibdir". Bu ifadə haqlı olaraq insanlarda qəzəb və hiddət hissi doğurub.

### Minskdəki idman qurğuları II Avropa Oyunlarını qəbul etməyə tam hazırdır

Minskdəki idman qurğuları II Avropa Oyunlarını qəbul etməyə tam hazırdır.

Bunu II Avropa Oyunlarının koordinasiya komissiyasının sədri, Yunanıstan Milli Olimpiya Komitəsinin (MOK) prezidenti Spiros Kapralos deyib.

S.Kapralos bildirib ki, bütün arenalar yarış üçün tam hazırdır. Təkcə arenalarda deyil, həm də burada işləyən və oyun zamanı bütün prosesləri idarə edəcək heyətin də hazırlığı yüksək səviyyədədir.

II Avropa Oyunları iyunun 21-dən 30-dək Minskdə keçiriləcək. Yarışlarda 50 ölkədən 4 mindən çox idmançı iştirak edəcək. Atletlər idmanın 15 növü üzrə 199 dəst medal uğrunda yarışacaqlar.

Xatırladaq ki, birinci Avropa Oyunları 2015-ci il iyunun 12-28-də Bakıda keçirilib.

## CL 1/4 final

### "Barselona" - "M. Yunayted"

(İspaniya) (İngiltərə)

16 aprel. İspaniya. "Kamp Nou" stadionu. Saat 23:00.

### "Yuventus" - "Ayaks"

(İtaliya) (Hollandiya)

16 aprel. İspaniya. "Kamp Nou" stadionu. Saat 23:00.

### Qrupumuzun oyunları Braziliyada təşkil olunacaq

Qadın voleybol komandaları arasında kontinental Olimpiya təsnifat turnirinə ev sahibliyi edəcək ölkələr müəyyənləşib. Azərbaycan millisi Braziliya, Dominikan Respublikası və Kamerun ilə birlikdə "D" qrupunda mübarizə aparacaq. Millimizin yer aldığı qrupun oyunları Braziliyada təşkil olunacaq.

Avqustun 2-4-də keçiriləcək turnirin yekununda qrupda birinci yeri tutan komanda Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanacaq.

### Avropa Atletika Assosiasiyasının yeni prezidenti seçilib




Çexiyanın Praqa şəhərində Avropa Atletika Assosiasiyasının XXVI konqresi keçirilib.

Konqresdə Svein Arne Hansen yenidən təşkilatın prezidenti seçilib. Prezident seçkilərinə yeganə namizəd olan Svein Arne Hansen 2015-ci ildən Avropa Atletika Assosiasiyasına rəhbərlik edir. O, növbəti dörd il ərzində də qurumun prezidenti olacaq.

# Xəzər İsayev:

## “Azərbaycan Beynəlxalq Ədalətli Oyunlar Hərəkatında yüksək fəaliyyəti ilə seçilir”

Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Respublikamızda idmanın qısa müddətdə sürətli inkişafı, ilk növbədə, bu sahəyə göstərilən dövlət qayğısı ilə bağlıdır. İdmançılarımız dünyanın ən mötəbər yarışlarında ən yüksək nailiyyətlər qazanırlar. Bu uğurların nəticəsidir ki, son dövrlərdə beynəlxalq qurumlar tərəfindən ölkəmizə yüksək səviyyəli etimad göstərilir, Azərbaycan nümayəndələri bu və ya digər beynəlxalq qurumlarda layiqincə təmsil olunurlar.

Ötən il Budapeştdə keçirilən Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) İcraiyyə Komitəsinin iclasında BƏOK Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzinin Bakıda yaradılması qərara alınıb, Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev mərkəzə prezident təyin olunub. Bu günlərdə Budapeştdə keçirilən BƏOK-un İcraiyyə Komitəsinin iclasında Xəzər İsayev qurumun icraiyyə komitəsinin üzvü seçilib, RƏOİM-un strukturu və əsasnaməsi təsdiq olunub, loqosunun təqdimat mərasimi keçirilib.

RƏOİM-un fəaliyyəti ilə bağlı Mərkəzin prezidenti və MOK-un vitse-prezidenti Xəzər İsayev “Olimpiya dünyası” qəzetinə müsahibə verib.

Müsahibəni təqdim edirik.

***- Xəzər müəllim, ilk növbədə, sizi BƏOK İcraiyyə Komitəsinə üzv seçilməyiniz münasibətilə təbrik edirəm. Sözsüz ki, beynəlxalq qurum tərəfindən ölkəmizə göstərilən etimad AzƏOK-la uğurlu əməkdaşlığın nəticəsidir.***

- Təbrikə görə çox sağ olun. İlk növbədə qeyd edim ki, AzƏOK son illər uğurlu işlərə imza atır. Bildiyiniz kimi, AzƏOK cənab İlham Əliyevin 1997-ci ildə MOK-un prezidenti seçilməsindən sonra yaradılıb. MOK-un prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə fəaliyyətə başlayan təşkilat 1998-ci ildə Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) üzvü olub. Həmin vaxt ardıcıl iki il təşkilatın tədbirində ölkəmizi Olimpiya çempionu Rəfiqə Şabanova, sonrakı il Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə təmsil etmişdi. 2000-ci ildən Azərbaycan Ədalətli Oyunlar Komissiyasının rəhbəri olaraq ölkəmizi qitə və dünya Ədalətli Oyunlar təşkilatlarının tədbirlərində təmsil edirəm. Biz Avropa və Beynəlxalq Ədalətli Oyunlar təşkilatları ilə sıx əməkdaşlıq edirik. Hər tədbirdə çalışırıq ki, ölkəmizin nüfuzunu, respublikamızda idmana göstərilən diqqət və qayğını təbliğ edək. Avropa və Beynəlxalq Ədalətli Oyunlar təşkilatlarının rəhbərləri ölkə başçısı İlham Əliyevə və ölkəmizin birinci xanımı Mehriban Əliyevaya öz xüsusi mükafatlarını təqdim ediblər. Beynəlxalq qurumların ölkəmizdə tədbirləri yüksək səviyyədə təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev ölkəmizdə Ədalətli Oyunlar Hərəkatının inkişafını həmişə diqqət mərkəzində saxlayır və bu sahənin inkişafına yeni imkanlar açır.

***- Bu yaxınlarda BƏOK-un Macarıstanda keçirilən İcraiyyə Komitəsinin İclasında iştirak etmisiniz. Səfəriniz barədə məlumat verərdiniz.***

- Məlumat üçün bildirim ki, Beynəlxalq Ədalətli Oyunlar Hərəkatı 1963-cü ildə yaradılıb. Bu hərəkat İkinci dünya müharibəsindən öncə də fəaliyyət göstərib. Ancaq müharibə vaxtı və ondan sonra hərəkat bir müddət fəaliyyətinə ara verib. BƏOK ədalətli oyunlar hərəkatını bütün dünyada təbliğ etməklə yanaşı, 1963-cü ildən indiyədək müxtəlif nominasiyalar üzrə mükafatlar təsis edir. 4 nominasiya üzrə verilən bu mükafatlar tanınmış idmançılara, idman xadimlərinə, rəsmi şəxslərə, KİV nümayəndələrinə, bu sahədə fərqlənən insanlara verilir. Bunlar “Pyer-de-Kuberten”, “Jak Roqq”, “Con Barotra” və “Villi Daum” mükafatlarıdır. Macarıstanda keçirilən İcraiyyə Komitəsinin iclasında 2018-ci ilin mükafatçılarının seçimi, Bakıda fəaliyyət göstərən Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzin gələcək fəaliyyəti barədə müzakirələr oldu. Mərkəzin strukturu ilə bağlı fikir mübadiləsi aparıldı və qurumun əsasnaməsi təsdiq edildi.




***- Qeyd etdiniz ki, iclasda BƏOK mükafatlarının qalibləri müəyyənləşdi. Azərbaycan bu mükafatlara namizədliyini irəli sürmüşdümü?***

- Qeyd edim ki, bu nominasiyalar üzrə mükafatları almaq üçün müxtəlif ölkələrdən 40-dan çox namizəd irəli sürülmüşdü. AzƏOK tərəfindən gənclər və idman naziri Azad Rəhimovun namizədliyi irəli sürülmüşdü. İcraiyyə Komitəsi üzvlərinin qərarına əsasən gənclər və idman naziri Azad Rəhimova Con Borota mükafatının verilməsi qərara alınıb. Bu, Azərbaycan dövlətinə, ölkə idmanına, Olimpiya və Ədalətli Oyunlar hərəkatlarına göstərilən diqqətin nümunəsidir. Bütün bunlar Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasına imkan yaradır. Mən də mərkəz rəhbəri kimi BƏOK İcraiyyə Komitəsinə üzv seçildim. BƏOK-un əsasnaməsinə düzəliş edildi və üzvlüyə yeni iki nəfər əlavə olundu. Hər bir işin arxasında ədalət dayandığı üçün ölkəmizdə bu prinsiplərə sadiqlik idmanın inkişafına töhfələr verir. Qeyd edim ki, BƏOK tərəfindən mükafatlar öz sahiblərinə sentyabrda keçiriləcək Qala mərasimində təqdim ediləcək. Qala mərasimin “Şəhər Oyunları” çərçivəsində Budapeştdə keçirilməsi nəzərdə tutulur.

***- BƏOK tərəfindən RƏOİM-in fəaliyyəti ilə bağlı hansı qərarlar qəbul olundu?***

- Qeyd etdiyim kimi, artıq Mərkəzin əsasnaməsi və strukturu təsdiq olunub. BƏOK İcraiyyə Komitəsindən 1 mütəxəssisin Mərkəzin vitse-prezidenti təyin olunması barədə qərar qəbul olunub. Biz hər il illik fəaliyyətimiz barədə məruzə təqdim etməliyik. Məruzənin şəffaf və obyektiv olması üçün bu addımı atdıq. Biz Mərkəzə Ədalətli Oyunlar Hərəkatının inkişafına xidmət göstərən insanları toplamaq istəyirik. Türkiyənin Ədalətli Oyunlar Komissiyasının sədri, Avropa Ədalətli Oyunlar Hərəkatının vitse-prezidenti Erdoğan Erpınar və BƏOK-un vitse-prezdenti rusiyalı Nikolay Dalqopolovun mərkəzə vitse-prezident təyin olunması barədə qərar vermişik. Digər vitse-prezident isə Azərbaycandan seçiləcək. Qurumun baş katibi latviyalı Bayba Veisa olacaq. Mərkəzin inkişafı üçün xüsusi proqram hazırlanacaq və bu istiqamətdə addımlar atılacaq.

***- Bildiyimizə görə, Mərkəzə yeni ölkələr də üzv seçilib.***

- Mərkəzdə 13 ölkə təmsil olunacaq. Bura Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, İran, Türkmənistan, Tacikistan, Monqolustan, Səudiyyə Ərəbistanı və Qətər daxildir. Ötən il BƏOK və Beynəlxalq Cüdo Federasiyasının birgə təşkilatçılığı ilə Bakıda qala-gecə təşkil olunmuşdu. Dəvətimiz əsasında Mərkəzə üzv olan bir neçə ölkədən nümayəndələr mötəbər tədbirə qatılmışdı. Mərkəz tam olaraq fəaliyyətə başladıqdan sonra bütün üzv ölkələrin iştirakı ilə hər ilin sentyabr-oktyabr aylarında Bakıda konqres və Baş Assambleyanın təşkili nəzərdə tutulub. Mərkəzə üzv dövlətlərin sayı arta bilər. Bəzi Asiya ölkələri, o cümlədən Koreya Respublikası, Yaponiya və digərləri ilə əlaqə yarada bilməmişik. Əfqanıstanın da üzvlüyü gündəmdədir. Ümumiyyətlə mərkəz Avrasiya regionunu əhatə edəcək.




***- Maraqlıdır, mərkəzin təsdiq olunan yeni loqosu özündə nələri əks etdirir?***

- Artıq mərkəzin loqosu hazırlanıb. BƏOK-un loqosunun rəngləri olan narıncı və qırmızı rənglərdən istifadə olunub. Yeni loqo Azərbaycanın milli xalça ornamentlərini və Qobustandakı qayaüstü rəsimlərin ornamentlərini əks etdirir. Xalça kombinasiyasındakı elementlər və UNESCO-nun ümumdünya irs siyahısına daxil edilmiş Qobustan Milli Parkındakı qaya üzərində tarixi təsvirlər ədalət simvolu ilə eleqant şəkildə birləşdirilib. Loqo Azərbaycanın tarixi irsini simvolizə edir və mədəniyyətini özündə birləşdirir. Loqonun müəllifi azərbaycanlı Orxan Qocadır. Həmin şəxs keçən il təqdimatı keçirilən AzƏOK-un yeni loqosunu da tərtib edib.

***- Yeni yaradılmış Mərkəz tərəfindən hansı tədbirlərin keçirilməsi nəzərdə tutulub?***

- Bir müddət sonra Mərkəzə üzv ölkələrin nümayəndələrinin Azərbaycana dəvəti nəzərdə tutulub. Səfər çərçivəsində onlarla mərkəzin gələcək fəaliyyəti barədə fikir mübadiləsi aparılacaq. Mərkəz tərəfindən tədbirlərin təşkili ilə yanaşı, bu sahədə fərqlənən şəxslərin mükafatlandırılması da nəzərdə tutulur. Bilirsiniz ki, idman həmişə ədalətli oyunlar prinsipi ilə sıx əlaqədədir. Bura idman tədbirləri və yarışları da daxildir. BƏOK gələcəkdə irimiqyaslı yarışlar zamanı idmançılarla, yanaşı jurnalistlərin də mükfatalandırmasını istəyir və bu istiqamətdə müzakirələr aparılır. Bu prinsip təkcə idmanı deyil, bütün sahələri əhatə etməlidir. Ölkəmizdə təşkil olunan ilk Avropa Oyunları zamanı bir neçə ədalət prinsiplərinə sadiqlik nümunəsinin şahidi olduq. Çox sevinərdik ki, həmin idmançı və könüllünü yarış ərəfəsində mükafatlandıraq. Ancaq beynəlxalq qurum sonradan həmin belaruslu samboçuya mükafat təqdim etdi. Ədalət prinsipinə sadiq insanların təkcə idmanda deyil, həyatda və təhsildə də fərqləndirilməsi nəzərdə tutulur.

***- AzƏOK bu il hansı tədbirləri təşkil etməyi planlaşdırır?***

- Azərbaycan Ədalətli Oyunlar Komissiyası Beynəlxalq və Avropa Ədalətli Oyunlar hərəkatları ilə sıx əməkdaşlıq edir. İki təşkilatın ölkəmizdə 4 dəfə mötəbər tədbiri yüksək səviyyədə təşkil olunub. Azərbaycan beynəlxalq Ədalətli Oyunlar Hərəkatında yüksək fəaliyyəti ilə seçilir. Bundan sonra birgə tədbirlərimizin sayı daha çox olacaq. AzƏOK-un yeni proqramı hazırlanır. Bu prinsiplərin təbliği istiqamətində regionlarda görüşlər təşkil olunacaq. Biz bu dəyərləri adi insanlara, məktəblilərə və gənclərə çatdırmaq istəyirik.

***Aysel Sultanova***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Sizin hər bir sahədə insanlara, ölkə vətəndaşlarına dəstəyiniz bizi çox sevindirir. Bu gün ölkəmizdə firavan həyat, sosial rifah yüksək həddə çatıb. Xalqımız əmin-amanlıq şəraitində yaşayır.

İdman sahəsində göstərdiyiniz diqqət isə bütün dünya üçün nümunədir. Məhz Sizin qayğınız nəticəsində Azərbaycan dünyada aparıcı idman ölkəsinə çevrilib. Bu barədə bizə beynəlxalq aləmdə tez-tez bildirirlər. Bir vaxtlar birlikdə çıxış etdiyimiz, hazırda ayrı-ayrı ölkələrdə yaşayan veteran futbolçular ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışırlar. Bəli, Azərbaycan idmanı böyük uğurları ilə bütün dünyaya səs salıb. Hər il müxtəlif miqyaslı yarışlarda əldə olunan yüksək nailiyyətlər bunun bariz nümunəsidir. Bir vaxtlar oxuduğumuz qəzetlərdə, baxdığımız telekanallarda izlədiyimiz mötəbər yarışları indi ölkəmizdə canlı izləmək imkanı yaranıb. Müxtəlif növlər üzrə nüfuzlu yarışlar üçün ölkəmiz, xüsusilə paytaxt Bakımız ən etibarlı ev sahibinə çevrilib. Belə ki, tarixdə ilk dəfə I Avropa Oyunları məhz Azərbaycanda keçirildi. Bu, tarixi bir hadisə kimi, daim yaddaşlarda qalacaq. Əgər Olimpiya Oyunları deyildikdə, ilk olaraq Afina yada düşürsə, Avropa Oyunlarından söz düşəndə məhz Bakı diqqətləri çəkir. Bu mötəbər idman tədbirindən sonra IV İslam Həmrəyliyi Oyunları da ölkəmizdə təşkil edildi. Belə bir nüfuzlu idman yarışının təşkili bütün dünyaya səs saldı. Azərbaycan bu Oyunların nüfuzunu daha da yüksəltdi. Ölkəmizin ev sahibliyi etdiyi istənilən yarış beynəlxalq aləmdə nümunə göstərilir. Artıq bu ay Bakıda Formula 1 üzrə növbəti Qran-Pri yarışı keçiriləcək. Dünyanın ən çox azarkeş kütləsinə sahib olan idman növlərindən olan Formula 1 yarışlarına paytaxtımız yenidən ev sahibliyi edəcək. Bu, beynəlxalq aləmdə ölkəmizə verilən dəyərdən və göstərilən etimaddan qaynaqlanır.

Cənab Prezident!

Azərbaycan idmanında futbol idman növündə yeni dövr başlayıb. Artıq FİFA və UEFA bayrağı altında keçirilən bir sıra yarışlar üçün Azərbaycan etibarlı ev sahiblərindən biridir. Belə ki, bu ilin yayında paytaxtımız UEFA Avropa liqasının final görüşünə ev sahibliyi edəcək. Qitənin ikinci böyük klub turnirində ən güclü finalçı Bakı Olimpiya Stadionunda müəyyənləşəcək. Bu, doğrudan da, 2019-cu il üçün ən yaddaqalan hadisə olacaq. Futbolla bağlı daha bir mötəbər yarış isə gələn il təşkil olunacaq Avropa çempionatı ilə bağlıdır. 2020-ci il iyunun 12-dən iyulun 12-dək davam edəcək final mərhələsinə Azərbaycan, İngiltərə, Macarıstan, Almaniya, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Hollandiya, Rusiya, Rumıniya və Şotlandiya ev sahibliyi edəcək. Bakı Olimpiya Stadionunda qrup mərhələsinin 3, 1/4 final mərhələsinin isə 1 oyunu keçiriləcək. Göründüyü kimi, qitənin ən böyük futbol ölkələri arasında Azərbaycanın, ən mötəbər idman qurğuları arasında isə Olimpiya Stadionumuzun adı çəkilir. Bütün bunlar dövlət tərəfindən futbola göstərilən diqqətin təcəssümüdür. Onu qeyd etmək istəyirik ki, biz futbol veteranları və futbol ictimaiyyətinin nümayəndələri Sizə minnətdarıq. Məhz Sizin sayənizdə bizim maddi və mənəvi imkanlarımız yüksəlib. Təşəkkür edirik ki, bizi daim diqqətdə saxlayırsınız. Biz isə hər zaman sizinləyik. Çünki Azərbaycanın bu günü və gələcəyi etibarlı əllərdədir.

***Hörmətlə,***
***Futbol veteranları adından***

***Kazbek Tuayev***
***“Şöhrət” ordenli veteran futbolçu,***
***Azərbaycan Futbol Məşqçiləri İttifaqının sədri,***
***AFFA-nın İcraiyyə Komitəsinin üzvü.***

***Ağasəlim Mircavadov***
***“Şöhrət” ordenli veteran futbolçu,***
***Məşqçilər Komitəsinin üzvü.***

***İsgəndər Cavadov***
***Şöhrət” ordenli veteran futbolçu, Regional Futbol Federasiyaları İctimai Birliyinin prezidenti.***

***Qurban Qurbanov***
***“Qarabağ” futbol klubunun baş məşqçisi.***

# Avropa Gənclər Olimpiya Festivalının məşəli Azərbaycana ötürülüb

*(əvvəli 1-ci səhifədə)*

Media nümayəndələrinin diqqətinə çatdırılıb ki, Azərbaycan bundan əvvəl bir sıra mötəbər tədbirlərə ev sahibliyi edib və kifayət qədər yüksək təcrübəyə malik bir ölkədir. Bildirilib ki, 15-ci Avropa Gənclər Olimpiya Festivalı iyulun 21-də Bakıda start götürəcək və Oyunlar üçün yeni idman arenaları tikilməyəcək. İdmançılar 12 idman qurğusunda 10 idman növündə mübarizə aparacaqlar. Bundan əvvəl bir sıra mötəbər tədbirlərə ev sahibliyi etmiş "Baku Crystal Hall" bu il açılış mərasiminin keçiriləcəyi məkan olacaq. Eyni zamanda, media nümayəndələrinə Avropa Gənclər Olimpiya Festivalının loqosu, daşıdığı məna, bununla yanaşı, maskotlar - cırtdan və Qafqaz bəbiri haqqında da məlumat verilib. Artıq könüllülərin seçiminin yekunlaşdığı, onlar üçün təlimlərin başlanıldığı, 3600 könüllünün yarışlara cəlb olunduğu və oyunlara hazırlıqla bağlı digər məqamlar diqqətə çatdırılıb.

AOK-nin prezidenti Janez Koçijançiç Azərbaycanın bu oyunlara çox yüksək səviyyədə hazırlaşdığını deyib və Avropa Gənclər Olimpiya Festivalının möhtəşəm şəkildə gerçəkləşəcəyinə əminliyini bildirib.

Sonra tədbirin rəsmi açılış mərasiminə start verilib. Gənclər və idman naziri Azad Rəhimov çıxış edərək məhz bu gündən etibarən yarışlara 100 gün qaldığı müddətdə tədbirin qədim Romanın dostluq və sülh rəmzlərini özündə əks etdirən tarixi Ara Pasis muzeyində keçirilməsinin xüsusi məna daşıdığını diqqətə çatdırıb. Azad Rəhimov 2018-ci ilin mayında dövlətimizin başçısı İlham Əliyevin imzaladığı Sərəncam əsasında "Bakı 2019" Təşkilat Komitəsinin yaradıldığını bildirib.

Nazir deyib: "Azərbaycan bütün dünyada sönməz odu, Yanardağı ilə məşhurdur. Əbəs yerə ölkəmizi "Odlar diyarı" adlandırmırlar. Bu gün oyunların məşəlinin məhz bizə, Azərbaycana ötürülməsi idman alovunun daha da gur yanması, gənclərin ürəyində idmana olan sevgi məşəlinin daha da artması deməkdir. Bu gecə oyunların məşəli qədim Romadan, tarixi Bakıya - "Odlar diyarı"na gedəcək. Eyni zamanda, qədim "zeytun ağacı" da Bakıya aparılacaq. Bu ağac sülhün, dostluğun rəmzi olmaqla, Avropa Gənclər Olimpiya Festivalının dərin köklərini nümayiş etdirir.

Nazir Bakının 15-ci Avropa Gənclər Olimpiya Festivalına hazırlıqları barədə məlumat verib, bundan əvvəlki illərdə ölkəmizdə keçirilmiş mötəbər idman tədbirləri barədə də danışıb.

Proqramın davamı olaraq, sülhün rəmzi olan "zeytun ağacı" AOK-nin rəsmiləri tərəfindən Azərbaycan nümayəndə heyətinə təqdim edilib. Bununla yanaşı, təqdimat mərasimində yunan-Roma güləşçisi, Olimpiya və dünya çempionu Fərid Mansurov, cüdoçu Kəramət Hüseynov və voleybolçu Raziyə Əliyeva da iştirak ediblər.

Daha çox nəsillərin məşəli bir-birinə ötürməsi kimi xarakterizə olunan mərasimdə Fərid Mansurov məşəli Yanez Koçijançiço, o isə gənc Raziyə Əliyevaya təqdim edib.

Romaya səfəri çərçivəsində nazir Azad Rəhimov Vatikan Dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti kardinal Canfranko Ravazi ilə görüşüb. Görüş çərçivəsində Vatikan tərəfindən tezliklə yaradılacaq İdman Assosiasiyası "Atletiko Vatican" ilə əməkdaşlığın qurulması, pontifik mədəniyyət şurasının gənclər təşkilatı, şuranın nəzdində fəaliyyət göstərən Ərəb və İslam Sivilizasiyası Tədqiqi İnstitutu ilə Azərbaycanın elm və təhsil sahəsində əməkdaşlığın təşkili, hər iki ölkənin gənc arxeoloqlarının təcrübə mübadiləsi proqramlarının qurulması məsələləri müzakirə olunub.

# Paralimpiyaçı cüdoçulardan ibarət yığmamızın üzvləri ilə görüş

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) vitse-prezidenti, İntizam Komissiyasının sədri İlham Zəkiyev paralimpiyaçı cüdoçulardan ibarət yığmamızın üzvləri ilə görüşüb.



Görüş zamanı mayda Bakıda keçiriləcək beynəlxalq Qran-Pri yarışına hazırlıq məsələləri müzakirə olunub. İdmançıların yarışlara fiziki və psixoloji hazırlıq səviyyəsi haqqında söz açılıb.

Kişilərdən ibarət yığma komandamızın baş məşqçisi İbrahim İbrahimov idmançıların hazırlığı haqqında danışıb. Bildirib ki, aprelin 14-dən yığmamız Göygöldə təlim-məşq toplanışına yola düşəcək. Qadınlardan ibarət millimizin baş məşqçisi Ramin İbrahimov bildirib ki, cüdo yığmamızın yarışlara yüksək səviyyədə qatılması üçün AMPK tərəfindən hər cür şərait yaradılıb. İdmançılarımız mütəmadi olaraq təlim-məşq toplanışlarında iştirak edirlər. Lazımi maddi-texniki baza yaradılıb. Odur ki, idmançıların qarşısında dayanan əsas vəzifə yarışda yüksək səviyyədə iştirak edərək medal qazanmaqdır.

Qeyd olunub ki, Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarına lisenziya xallarının qazanılması üçün Bakı Qran-Prisində qələbə çox önəmlidir.

Sonra İ.Zəkiyev idmançılara məşqlərdə və gələcək yarışlarda uğurlar arzulayıb.

# Ölkə kubokunun qalibləri təltif edilib

Aprelin 14-də Abşeron Olimpiya İdman Kompleksində böyüklər arasında mas-reslinq üzrə Azərbaycan kubokuna yekun vurulub. Yarışlar Gənclər və İdman Nazirliyinin və Azərbaycan Mas-reslinq Federasiyasının birgə təşəbbüsü ilə keçirilib.

Yarışda ölkəmizin 10 rayonundan 100-dək idmançı iştirak edib. Kişilərin mübarizəsində müxtəlif çəki dərəcələrində Rəsul Səfərov (60 kq), Orxan Xanlarov (70 kq), Sultan Ağayev (80 kq), Xəyyam Orucov (90 kq), Cahangir Yaqubov (105 kq), Vüsal Orucov (125 kq) və Camal Feyziyev (+125 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qızların yarışında isə Şəfəq Məmmədova (55 kq), Günel Vəliyeva (65 kq), Nərgiz İbrahimova (75 kq), Mətanət Həsənova (85 kq) və Səbinə Hüseynova (+85 kq) birinci yerə layiq görülüblər.

Qaliblər medallar və diplomlarla təltif olunublar. Həmçinin yarışın qalibləri Bakıda keçiriləcək dünya kuboku yarışında iştirak etmək hüququ qazanıblar.

# Ədalətli İdman Günü ilə əlaqədar seminar

10 Aprel - Ədalətli İdman Günü ilə əlaqədar Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşkilatçılığı, Azərbaycan Velosiped İdmanı Federasiyası və Respublika Olimpiya Velosiped Məktəbinin dəstəyi ilə Respublika Velotrekində seminar təşkil edilib.

Tədbirə velosipedçilərlə yanaşı, digər idman növləri ilə məşğul olan yeniyetmə və gənclər də qatılıblar.

AMADA-nın təhsil üzrə meneceri Lalə Hacıyeva idmanda bərabərliyin qorunmasının vacibliyindən, ədalətli qələbə və "təmiz idman"ın əhəmiyyətindən danışaraq Agentliyin bu istiqamətdə fəaliyyəti haqqında məlumat verib.

Menecer istifadəsi qadağan olunmuş preparatlardan istifadəyə qarşı görülən işlər, idmançıların maarifləndirilməsi istiqamətində həyata keçirilən layihələr və perspektivlərdən də geniş söhbət açıb.

Beynəlxalq Antidopinq Agentliyi (WADA) 10 aprel tarixini dünyada Ədalətli İdman Günü elan edib. 2013-cü il aprelin 10-da Cənubi Amerikanın 17 ölkəsinin iştirakı ilə keçirilən WADA-nın təhsil konfransında ədalətli idman təşəbbüsü irəli sürülüb. Cənubi Amerika ölkələrinin təşəbbüsünə daha sonra Avropa, ardınca isə bütün dünya ölkələri qoşulub. Hər il bu təşəbbüsə müxtəlif ölkələr qoşularaq silsilə tədbirlərə ev sahibliyi edir. Bu isə hərəkatın qloballaşmasına imkan yaradır. Hərəkatın sıralarının genişlənməsi dünyada "təmiz idmançılar"ın sayının artmasına, atletlərə rəqibə ədalətlə yanaşmaq və təmiz qələbə hislərini aşılamağa böyük töhfə verir.

# *Azərbaycan güləşçiləri Avropa çempionatını 13 medalla başa vurdular*



*(əvvəli 1-ci səhifədə)*

Bu mərhələdə Moldova nümayəndəsinə heç bir şans tanımayan millimizin lideri ardıcıl 2-ci, ümumilikdə 3-cü dəfə Avropa çempionatının finalına yüksəlib. Həlledici qarşılaşmada təcrübəsindən, taktika və texnikasından maksimum yararlanan Hacı türk həmkarına göz açmağa imkan verməyib və titulunu qoruyub. Beləliklə, Əliyev həm 3 qat dünya, həm də 3 qat Avropa çempionu olub.

Güləşçimiz Mahir Əmiraslanov startda Moldova təmsilçisinə qalib gəlsə də, 1/4 finalda Türkiyə güləşçisinə uduzub. Ancaq rəqib finala yüksəldiyindən həmyerlimiz təsəlliverici görüşə çıxıb və Fransa təmsilçisinə qalib gələrək bürünc medal qarşılaşmasına vəsiqə qazanıb. Son görüşdə də bolqar rəqibindən daha yaxşı çıxış edən Mahir ilk dəfə böyüklər arasında Avropa çempionatının medalçısı olub.

Ağahüseyn Mustafayev Avropa çempionatına möhtəşəm başlayıb. Ardıcıl iki dünya çempionunu - Rusiya və Ermənistan pəhləvanını məğlub edən yığma üzvü yarımfinala adlayıb. Finalın bir addımlığında Böyük Britaniya təmsilçisini də rahat üstələyən Ağahüseyn karyerasında ilk dəfə AÇ-nin finalına vəsiqə qazanıb. Ancaq türk güləşçiyə uduzaraq gümüş medalla kifayətlənib.

Millimizin kapitanı Cəbrayıl Həsənov ilk görüşündə gürcü güləşçi üzərində əzmkar qələbə qazanan ikiqat Avropa çempionu ardınca Almaniya idmançısını tam üstünlüklə məyus edib və yarımfinala yüksəlib. Finalın bir addımlığında isə Moldova güləşçisi Həsənova müqavimət göstərə bilməyib. Beləliklə, Cəbrayıl 6-cı dəfə AÇ-nin finalına yüksəlib. Həsənov Rusiya güləşçisi yarımfinalda zədələndiyi üçün finalda güləşmədən 3-cü dəfə Avropa çempionu olub.

Püşkdə bəxti gətirməyən Nurməhəmməd Hacıyev startda Olimpiya, dünya və Avropa çempionu Abdulrəşid Sadullayevlə qarşılaşıb və uduzub. Ancaq titullu rəqib finaladək irəlilədiyi üçün Hacıyev ertəsi gün təsəlliverici görüşə çıxıb və bürünc medal uğrunda döyüşdə qalib gəlib.

Mübarizəyə 1/4 finaldan başlayan Şərif Şərifov Rusiya nümayəndəsini üstələyərək yarımfinala yüksəlib. Gürcüstan pəhləvanına da öz gücünü göstərən dünya və olimpiya çempionu ardıcıl 2-ci, ümumilikdə, 3-cü dəfə AÇ-nin finalına adlayıb. Finalda polşalı rəqibinə də heç bir şans tanımayan Şərif ilk dəfə Avropa çempionu olub. Şərif Şərifov bu qələbəsi ilə həm də böyüklər arasında Olimpiya, dünya və Avropa çempionu olan ilk güləşçimiz kimi tarixə düşüb.

8 qadın güləşçimiz Avropa çempionatında baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında yarışıb.

Elis Manolova ilk mərhələdə çətinliklə də olsa, isveçli həmkarına qalib gəlib. Elis 1/4 finalda alman güləşçini də məyus edərək yarımfinala yüksəlib. Bu mərhələdə dünya və Avropa çempionu ilə qarşılaşan Manolova rəqibini "tuşe" ilə məğlub edib. Xanım idmançımız ötən il Kaspiyskdə keçirilən analoji yarışdakı məğlubiyyətin əvəzini çıxıb və ardıcıl 2-ci il AÇ-nin finalına yüksəlib. Finalda rumınıyalı Krista İnçe ilə üz-üzə gələn Manolova 0:4 hesabı ilə geri düşsə də, əzmkarlıq göstərərək, qarşılaşmanı qələbə ilə başa vurub - 6:4. Bununla da Manolova Azərbaycanın qadın güləşində ilk qızıl medalına sahib olub.



Elmira Qəmbərova gərgin keçən görüşlərində Rusiya təmsilçilərinə məğlub olub. Ancaq rəqibi finala yüksəldiyi üçün bürünc medal uğrunda ukraynalı idmançıya qalib gələrək bürünc medalı boynundan asıb.

Alyona Kolesnik startda isveçli rəqibini elə ilk dəqiqədə "tuşe" ilə məğlub edib. Macar idmançıyla görüşə də yaxşı başlayan Kolesnik 5 xal fərqiylə önə çıxıb. Ancaq üstünlüyünü qoruya bilməyən Alyona xalçadan məğlub ayrılıb. Rəqib finala yüksəldiyi üçün yığmamızın üzvü təsəllivericigörüşə çıxıb. Həlledici görüşdə Kolesnik bolqarıstanlı Mimi Nikolova Xristovanı 10:2 hesabı ilə məğlub edib və bürünc medalı boynundan asıb.

Tatyana Omelçenko da qitə birinciliyinin bürünc medalını qazanıb. İdmançımız həlledici qarşılaşmada ukraynalı güləşçini 6:4 hesabı ilə xalçadan kənarlaşdırıb.

Beləliklə, Avropa çempionatına 8 güləşçiylə yollanan millimiz 1 qızıl, 3 bürünc medal qazanıb. Ümumilikdə 96 xal toplayan komandamız Avropa 4-cüsü olub.Yığmamız yalnız Rusiya (168), Bolqarıstan (112) və Türkiyədən (98) geri qalıb. Millimizin Buxarestə kapitan Mariya Stadnik olmadan yollandığını nəzərə alsaq, bu nəticəni uğurlu saymaq mümkündür.

Yunan-Roma komandamız isə Avropa çempionatında medallar uğrunda 10 nəfər heyətlə baş məşqçi Şaban Donat və böyük məşqçi Rövşən Bayramov, məşqçilər Emin Əhmədov və Turac Hüseynlinin rəhbərliyi altında mübarizə aparıb.

Güləşçimiz İslam Abbasov finala qədər Olimpiya, dünya və Avropa çempionları olan rəqiblərini mübarizədən kənarlaşdırıb. Onun finalda rəqibi Rio-2016 Olimpiadasının gümüş mükafatçısı, ünya və Avropa çempionu ukraynalı Jan Belenyuk olub. İslam güclü rəqibə məğlub olaraq gümüş medalla kifayətlənib. Bu, onun böyüklər arasında qitə çempionatında ilk medalı olub.

Dünya və Avropa çempionu Eldəniz Əzizli ilk görüşündə Serbiya güləşçisini cəmi 1 dəqiqə 54 saniyəyə məğlub edib. Eldəniz dörddəbir finalda əsas rəqiblərindən sayılan gürcü idmançıya da heç bir şans verməyib və vaxtından əvvəl qələbə qazanaraq yarımfinala yüksəlib. Ancaq finalın bir addımlığında Rusiya güləşçisinə uduzan Eldəniz Əzizli bürünc medal uğrunda türkiyəli idmançı ilə güləşib və çətinlik çəkmədən qalib gəlib.

Digər idmançımız Taleh Məmmədov yarımfinala qədər uğurla irəliləyib. Bu mərhələdə Norveç təmsilçisinə uduzan idmançımız üçüncü yer uğrunda mübarizə aparmalı olub. Bürünc medalı erməni güləşçidən asanlıqla alan Taleh Məmmədov Avropa üçüncüsü olub.

Qitə birinciliyində 1 gümüş və 2 bürünc medal qazanan yunan-Roma güləşi üzrə yığmamız 76 xal toplayaraq, komanda hesabında 3-cü yeri tutub. Rusiya (192) birinci, Türkiyə (132) isə ikinci olub.

Beləliklə, Azərbaycan güləşçiləri Avropa çempionatında 13 (4 qızıl, 2 gümüş və 7 bürünc) medalla başa vurublar.

**Bizim müsahibə**

*Azərbaycan mədəniyyətini, incəsənətini dünyaya tanıtdıran vasitələrdən biri də idmandır. Ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev deyirdi: “İdman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur. İdman həm də mədəniyyətdir”. Rəssamın, şairin yaratdığı əsər elə idmançının qazandığı qələbə kimidir.*

*Bu maraqlı mövzu ilə bağlı 60 illik yubileyini qeyd edən, Əməkdar mədəniyyət işçisi, tanınmış şair, publisist, Azərbaycan Yazıçılar Birliyi (AYB) İdarə Heyətinin üzvü, Uşaq Ədəbiyyatı şöbəsinin rəhbəri, “Azərbaycan” jurnalının poeziya şöbəsinin müdiri, “Qızıl kəlmə” mükafatı laureatı Qəşəm Nəcəfzadə “Olimpiya dünyası” qəzetinə müsahibə verdi.*

# Qəşəm Nəcəfzadə:
# “Poeziyada ən yaxşı misra, qapıya vurulan qol kimidir”



***- Qəşəm müəllim, Azərbaycanın ictimai həyatında, ədəbiyyatında kifayət qədər tanınmış söz adamısınız və oxucuların ürəyində xüsusi yeriniz var. Ömrün 60-cı baharındasınız, geridə nə qaldı?***

- Cavabım bir az fəlsəfi olacaq, amma elə bilirəm, geridə, necə deyərlər, bir tunel qaldı. Və bir də həmin tunelə düşən işıq. İnsan ömrü şaquli, üfüqi xətt kimi gedir və sanki bir quyuya bənzəyir. Quyudan, tuneldən çıxa bilirsənsə, o işığı görəcəksən. Həmin işıq isə həyatının, ya da üzün yol qət etdiyin tuneldə vaxtın, zamanın hədər getməməsidir mənim üçün. Quyuya işıq düşdükdən sonra yenidən əvvəlcədən gəldiyimiz yerə, qayıdırıq. O yola ki, ordan həyat adlı bir quyuya düşmüşdük. Deməli, quyuya işıq düşürsə, yenə işığa qayıtmış oluruq.

## “Hər qaranlıqda bir işıq, hər işıqda bir qaranlıq var”

***- Belə çıxır ki, qayıdacağınız yer buradan daha işıqlıdır?***

- Əslində, hər qaranlıqda bir işıq, hər işıqda bir qaranlıq var. Başqa sözlə, işığın kölgəsi qaranlıq, kölgənin qaranlığı isə işıqdır.

***- Belə demək olarmı ki, geridə həm də ürəyinizdən, qəlbinizdən süzülüb gələn şeirləriniz qalıb?***

- İndiyə qədər 36 şeir kitabım işıq üzü görüb və əsasən, realist janra üstünlük verirəm. Əsərlərim türk, rus, gürcü, polyak, özbək, alman, fransız, ispan, italyan və başqa dillərə tərcümə olunub. Hollandiyada ingilis və holland, Tehranda fars və Azərbaycan, Türkiyədə türk, Kolumbiyada ispan dillərində kitablarım oxucular a təqdim olunub. Moskvada 6, Tehranda isə 4 kitabım işıq üzü görüb.

***- İlk şeiriniz necə yaranıb?***

- Uşaqlıqda gecələr sayrışan ulduzları uzun-uzadı seyr etməyi çox xoşlayırdım. İlk şeirimi də elə ulduzlara baxa-baxa, orta məktəb illərində yazmışam.

***- Hansı əsərinizi özünüzə daha yaxın hiss edirsiniz?***

- İnsan övladına fərq qoymadığı kimi, şair də əsərlərinə fərq qoymur. Elə əsərim olub ki, ürəyimcə yazmışam, amma oxucular arasında o qədər də populyar olmayıb. Ümumiyyətlə, hər əsərin öz oxucusu var.

## “Barmaqların öpüşündən gözəl əsərlər yazılır”

***- Barmaqların da öpüşü olur?***

- (Gülümsəyir) Barmaqlar öpüşəndə və yaxud barmaqların öpüşündən gözəl əsərlər yazılır, mahnılar bəstələnir, rəsmlər çəkilir. “Barmaqların öpüşü” adlı əsərim Tehranda fars dilində nəşr olunub. Əl məfhumu mənim əsərlərimdə bir obrazdır. Eyni əldə beş barmağın hər biri fərqlidir. Şeirlərimin birində yazmışam ki, bu barmaqlar avtomatın tətiyində deyil, sevgi sözünü kağızda yazanda birləşsin, öpüşsün. Bir də yazmışam ki, barmaqlar deyir ki, məni tətiyə sıxma, bəlkə, qarşındakının barmağında nişan üzüyü var.

***-Yurd yeri Sizi çəkirmi?***

- Elimə-obama çox bağlı insanam. Mən İmişli rayonunun Əliqulular kəndində dünyaya göz açmışam. Kəndimin tozunu da, palçığını da sevirəm. Mənə gülməyin, kəndimizdə hamının “dəli” deyib güldükləri, amma əslində çox müdrik olan və həmişə qaloş geyinən həmkəndlimdən ötrü belə darıxıram. Kəndimizin Novruz bayramları üçün burnumun ucu göynəyir. Yurdumun qoyunu, iti, pişiyi, ulağı da mənə doğmadır. O torpaqda yaşayan nənələri, babaları, əmiləri, dayıları, xalaları, bibiləri çox sevirəm. Kəndimin otlağında otlayan qoyun, at, eyni zamanda, yaşıl yamaclar, əyri evlər mənim heç vaxt unuda bilməyəcəyim doğma yurdumdur. Mən Vətənimi sevirəm.

Biz tərəkəməyik. Tərəkəmələr yayda yaylağa (Kəlbəcər, Laçın rayonlarına) köç edər, qoyun-quzusunu otarar, heyvandarlıqla məşğul olardılar. İndi həmin yerlər işğal olunduğundan bu mümkün deyil. Mən tərəkəmələrin həyatından, adət-ənənələrindən, məşğuliyyətindən bəhs edən “O qara əyri bulud” adlı bir kitab da yazmışam. Həmin kitabda “yelin”, “kətəməz”, “bulama”, “qursaq” və eyni zamanda “hana”, “əriş”, “arğac”, “kücü” və s. sözlərin mənasını dolğunluğu ilə izah etmişəm. Tariximizi, adət-ənənələrimizi unutmamalıyıq.

***-Tərəkəmələrdə xalq oyunlarına da maraq çox olub?***

- Belə oyunlar köçəri oyunları adlanır. İndi köçəri oyunları Orta Asiyada da keçirilir. Bunlardan “dirədöymə”, “çiliktoxuma” “qığmərə” və s. kimi, oyunları misal göstərmək olar. Uşaqlıqda o qədər oynamışam ki, bu oyunları.

***- Qəşəm müəllim, elə olubmu ki, beynizdəki fikirləri, düşüncələri kağıza köçürə bilməmisiniz və yaxud köçürməkdə çətinlik çəkmisiniz?***

- (Köksünü ötürür). Çox olub belə hallar. İzah etməkdə çətinlik çəkirəm. Elə olub ki, beynimdə düşündüklərimi tam açıqlığı, dolğunluğu ilə nə özümə, nə də kağıza köçürə bilmişəm. Qəribə bir hissdir.

## “Hərdən yuxularımda rəqib qapısına qol vurduğumu görürəm”

***- Uşaqlıqda ən böyük arzunuz nə olub?***

- Futbolçu olmaq istəmişəm (gülümsəyir). Amma yaxşı futbolçu olmadığımdan kənddə uşaqlarla futbol oynayanda məni həmişə qapıçı qoyurdular.

Hərdən yuxularımda rəqib qapısına qol vurduğumu görürəm. Guya mən tanınmış hücumçuyam və qol vuranda tribunadan alqışlayırlar. Hətta hərdən topla uçuram da (gülür). Belə yuxulardan sonra mənən çox sakitləşir və rahatlaşıram, yorğunluğum çıxır.

***- Necə düşünürsünüz, poeziya ilə idmanın əlaqəsi varmı?***

- Mən poeziyanı xüsusilə, futbola bənzədirəm. Poeziyada ən yaxşı, uğurlu misra, meydançada qapıya vurulan qol kimidir.

***- Həyat nədir?***

- Düşünürəm ki, insan həyatı dünyanın, yerin yaddaşında bir saniyə qədərdir. Biz günəşdən yer kürəsinə baxa bilsək, uşaqlığımızı orda görə bilərik.

***- Dəli şeytan nə deyir?***

- (Gülür). Dəli şeytan deyir ki, çıx get buralardan Moskvaya. Bu adda şeir kitabım var. Eyniadlı şeirimdə belə bir misra var: “Bir dəli şeytan deyir, çıx get Moskvaya. Yaxşıdır şəhərdə pomidor satmaq, zülümdü bu kənddə müəllim olmaq”.

Amma sonralar bunun əksini yazmışam və demişəm: “Kənddə pomidor satmağın, pomidor əkməkdən nəyi yaxşıdır, nəyi?” Yaxşı şair odur ki, əvvəl yazdıqlarını inkar edə bilsin, amma əsaslandırmaq şərti ilə.

***- 2007-ci ildə Avropada keçirilən 38-ci beynəlxalq poeziya festivalında iştirak etmisiniz. Bununla bağlı nə deyə bilərsiniz?***

- Avropada keçirilən 38-ci beynəlxalq poeziya festivalında Azərbaycan Yazıçılar Birliyinin (AYB) xətti ilə iştirak edirdim. AYB ölkəmizdən 50 nəfər şairin şeirləri ilə birlikdə mənim də şeirlərimi bu müsabiqəyə göndərmişdi. Çox qürurverici idi ki, onların içindən mənim şeirlərimi bəyənib Hollandiyaya dəvət etmişdilər. Dünyanın seçilmiş 23 şairinin iştirak etdiyi 38-ci beynəlxalq poeziya festivalında 2-ci yeri tutmaq mənim üçün böyük uğur idi. Fikrimcə, seçilmişlərin içində ikinci yeri tutmaq dünya çempionatının gümüş medalını qazanmaq kimi idi.

***- İşlərinizi planlaşdırırsınızmı?***

- Əvvəlcədən fikirləşdiyim, planlaşdırdığım işlərim nədənsə alınmayıb. Həyatımda qəfil baş verən hadisələr isə, nə qədər qəribə də olsa, həmişə uğurlu olub.

## “Ədəbiyyatda da, idmanda da peşəkarlıq, təcrübə mühüm şərtdir”

***- Şeirləriniz üçün mövzuları necə seçirsiniz?***

- İnsanları, hadisələri müşahidə və təhlil etmək mənim təbiətimdədir. Kitablar da həyatdan götürülür. Məsələn, metroda, cəmiyyət arasında müşahidə etdiklərim satirlərdə sözə çevrilir. Düşünürəm ki, hər bir insanın həyatı, taleyi bir yazılmamış romandır. Bir dəfə işdən gələndə metroda qucağında körpə uşağı olan ana gördüm. Uşağı çimdikləyirdi ki, ağlasın və ona pul versinlər. Bu mənzərə ürəyimi ağrıtdı. Bunu kağıza köçürmək o qədər də asan deyil. Bir çox nüanslar lazımdır və bunu elə peşəkarlıqla verməlisən ki, mahiyyəti oxucuya çatdıra biləsən.











Ədəbiyyatda da, idmanda da peşəkarlıq, təcrübə mühüm şərtdir.

## “Olimpiya Hərəkatının idealları sülhə təminatdır”

***-Yeri gəlmişkən, idman məfhumu, onun fəlsəfəsi barədə nə deyə bilərsiniz?***

- İdman, Olimpiya Hərəkatı böyük məfhumdur. İdman həm fiziki güc, həm də mədəniyyətdir. Olimpiya Hərəkatı deyəndə gözümüz önündə idmanla bərabər, mədəniyyət və incəsənət də canlanır. 2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunları Azərbaycanı dünyaya daha da tanıtdırdı, xalqımızın mədəniyyətini, adət-ənənələrini nümayiş etdirdi. İdman sərhəd tanımır. Ölkə idmanı ilə daha sürətlə tanınır, sevilir.

İdmandan alınan zövq elə fəlsəfədir. Məsələn, mən futbola özümü qol vuran futbolçunun yerində hiss etdiyim, arzuladığım üçün baxıram və bundan zövq alıram. İdman özünün sülhsevər məramı, qardaşlığı, dostluğu tərənnüm etdiyi üçün dünyanı xilas edəcək. Olimpiya Hərəkatının idealları sülhə təminatdır. İdman enerjidir, gücdür və ondan düzgün istifadə etmək lazımdır. Vaxt gələcək ki, antik dövrdə olduğu kimi, idman, Olimpiya Oyunları, nəhayət, bütün müharibələrə son qoyacaq.

***- Şeir yazmaq idman meydançasındakı mübarizəyə bənzəyir. Necə düşünürsünüz?***

- Ürəyimcə olan şeirimi yazanda özümü dünyanın ən xoşbəxt insanı kimi qalib saymışam. Sanki hansısa idman yarışında rəqibimi məğlub edərək çempion olmuşam. İstədiyim alınmayanda isə məğlub olmuşam. İdmançıya qalib gəlmək üçün güc lazım olduğu kimi, şairə də, yazıçıya da uğurlu əsər yaratmaq üçün güc, yəni ruh lazımdır. Başqa sözlə, bədənin və ruhun gücü qalibiyyətdə mütləq amildir.

Təəssüf ki, ədəbiyyatda, incəsənətdə idmanla bağlı əsərlər, mahnılar çox azdır. Əslində idman çox maraqlı sahədir və hüdudları genişdir.

***- İnsan niyə yazıb yaratmaq istəyir, bu ehtiyacdır, yoxsa tələbat?***

- Yer üzünün əşrəfi olan insan Tanrının yaratdığı kamil varlıqdır. O, dünyaya gəldiyi ilk gündən yaşayıb yaratmaq istəyir. Sevir, rəqs edir, rəsm çəkir, şeir yazır. Bununla o, daxilən sakitləşir, rahatlaşır. Fitri istedadlı adamlar həmişə darıxır və ruhunu sakitləşdirmək üçün müxtəlif cür vasitələr arayıb axtarırlar və nə qədər ki, insan övladı var, bu axtarışlar davam edəcək. Yaratmaq ruhun qidası, ehtiyacıdır. Biz əcdadlarımızın daşıyıcılarıyıq və kodlaşdırılmışıq.

***- Əgər insan kamildirsə, bəs niyə acımasız əməllər törədə bilir?***

- Doğuluşdan kamil olan insan pis əməllər törədirsə, deməli, bu, onun psixi pozğunluğundan irəli gəlir. Pis insan yoxdur, pis tərbiyə var. Şöhrətpərəstlik, var-dövlət düşkünlüyü özü də psixi pozğunluqdur. Paxıllıq, xudpəsəndlik də, həmçinin və bunun müalicə olunması mümkündür. İnsan niyə qatil olur? Deməli ki, onu zədələyən, incidən faktorlar var bu həyatda. Bir sözlə, insanın insan kimi formalaşmasında tərbiyədən, mühitdən çox şey asılıdır.




## “Mən futbolu o qız üçün oynayıram”

***- Qalib kimdir, məğlub kim?***

- Mənim fəlsəfəmə görə, bu dünyada qalib məğlubdur, məğlub da qalib. Silahlının silahsıza hücum etməyi, qalib gəlməyi əslində bir qorxaqlıqdır. Silahlı olmaq həmişə güclü olmaq demək deyil.Bir sözlə, əslində, bəlkə də, ölən qalib, öldürən məğlubdur.

***- Bəs heç-heçə hesabı Sizə nə deyir?***

- İdmanda rəqib komandadan biri mütləq ya qalib, ya da məğlub olacaq. Bir futbol azarkeşi kimi məni hesabdan daha çox maraqlandıran komandanın nümayiş etdirdiyi oyundur. Hesab, nəticə o qədər də vacib deyil. Elə gözəl şeirlərim var ki, mükafat ala bilməyib. Bu o demək deyil ki, onlar yaxşı şeir deyil. Güclü yazıçılar var ki, Nobel mükafatı ala bilməyiblər. Məsələn, Çingiz Aytmatov, Oljas Süleymanov kimi.

Ədəbiyyatda isə heç-heçə hesabı yaxşı deyil. Mən deyərdim ki, məğlub olmaq ondan daha yaxşıdır.

***- Hansı komandaya azarkeşlik edirsiniz?***

- Fanatı olduğum komanda yoxdur. Daha doğrusu, komandaya deyil, oyuna azarkeşlik edirəm. Maraqlı, gözəl, peşəkar oyun nümayiş etdirən komandanın oyununa həvəslə baxıram.

***- Klub yaratmaq istəsəydiniz, adını necə qoyardınız?***

- Mən hər dəfə xəyallarımda futbol oynayıb, qol vuranda elə bilirəm ki, tribunada bir qız oturub mənə baxır və o mənim sevgilimdir. Mən futbolu o qız üçün oynayıram. Yəqin ki, elə klubumun da adını “Sevgilim” qoyardım (gülür).

***- Mükafat Sizin üçün nədir?***

- Gözü-könlü tox insanam, heç kəsdən umacağım yoxdur. Başımı aşağı salıb, yaradıcılığımla məşğul oluram. Mənim mükafatım yaradıcılığım, yazılan və sevilən kitablarım, ailəmdir.

***- Bəlkə, qol vurmaq arzunuzu övladlarınız reallaşdıra bilərdi?***

- Üç övladım var-iki oğlan, bir qız. Hamısı ailəlidir. Oğlanlarım idmanla məşğul olsalar da, başqa sahələrdə çalışırlar. Böyük oğlum mənim kimi yaradıcı insandır. Hərdən nəvələrim gəlir, evimiz şənlənir.

***- Siz həm də gözəl uşaq şeirləri yazırsınız?***

- Uşaq şeirlərini hələ gənc yaşlarımdan yazıram. Bir şeirimdə üç obraz var idi-Kəramət, Sevinc, Tural. Təsəvvür edin ki, həmin obrazların adlarını övladlarıma verdim. İndi onların xarakteri, xasiyyəti də elə həmin obrazlar kimidir.

Sevinc iməkləyəndə ona bir şeir yazmışdım. Həmin şeirin adı “Çiçəkli xalça” idi və həmin adda uşaq şeirləri kitabım da var.

Xalça çiçək-çiçəkdir
Hər ilməsi göyçəkdir.
Sevinc bir çiçəyindən
Tutdu çəkdi, ha çəkdi.
Nə çiçək qopdu yerdən,
Nə də Sevinc əl çəkdi.

Sevincin qızı Aysu məktəbin 1-ci sinfinə gedəndə maraqlı hadisə baş verib. Həmin şeir 1-ci sinfin dərsliyinə salınmışdı. Aysu həmin şeiri lövhəyə çıxıb danışanda “Sevinc” demək əvəzinə “mamam” söyləyib. Müəllimə Aysuya acıqlanıb irad tutanda: “Mamam nədir, Sevinc deməlisən”, qayıdıb ki, “ müəllim, Sevinc mənim mamamdır də”.

Uşaqlarla çox incə, həssas, qayğıkeşliklə davranmaq lazımdır. Şərait yaratmaq lazımdır ki, uşaqlıqlarını yaşasınlar, təbii, yaşlarına uyğun böyüsünlər.

***- Torpaqlarımızın 20 faizi işğal altında olduğu bir vaxtda vətənpərvərlik mövzusunda əsərlər niya az yazılır?***

- Əksinə, vətənpərvərlik mövzusunda çox yazılıb. Amma bəziləri yaxşı yazılmayıb. Bu, mənim fikrimdir. Bir əsgər kimi Qarabağda döyüşmək, vuruşmaq, şəhid olmaq istəyirəm. Lakin bir şair kimi Qarabağ torpağında olan insanları xilas etmək keçir könlümdən. İnsanlığı xilas etmək istəyirəm. Qarabağ bu münaribəni sülh yolu ilə həll etməklə Nobel mükafatına layiq qəhrəmanı gözləyir indi. İstəyirəm ki, Qarabağ işğaldan azad olunsun, qan tökülmədən, tələfat olmadan. Yaradıcılığımda Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin tərənnümü bir qırmızı xətt kimi keçir. Hər bir Azərbaycan vətəndaşı kimi, mən də ölkəmizin qüdrətli olması, çiçəklənməsi üçün yaşayıb yaradıram.

***- Qəşəm müəllim, Sizi 60 illik yubileyiniz münasibəti ilə təbrik edir, yaradıcılığınızda uğurlar arzulayırıq. Müsahibə üçün təşəkkür edirik.***

- Minnətdaram. Çox sağ olun. Mən də qəzetinizə Azərbaycanda idmanın, Olimpiya Hərəkatının təbliği sahəsində daha böyük uğurlar arzulayıram.

*Səadət Zifiqızı*

*Azərbaycanın tanınmış şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan “Shamkir Chess 2019” superturnirinin bağlanış mərasimi keçirilib. Şəmkirdəki Heydər Əliyev Mərkəzində keçirilən bağlanış mərasimində Şəmkir Şəhər İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov çıxış edərək Vüqar Həşimov memorialının dünyada ən nüfuzlu turnirlərdən birinə çevrildiyini vurğulayıb.*



# “Shamkir Chess 2019” superturnirinin bağlanış mərasimi keçirilib

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov Azərbaycanda idmana, xüsusilə şahmata göstərilən diqqət və qayğıdan danışıb. Nazir müavini Vüqar Həşimov memorialının ölkədə şahmatın təbliğində rolunu xüsusi qeyd edib, turnirin qalibini, norveçli dünya çempionu Maqnus Karlseni təbrik edib.

Vüqar Həşimovun qardaşı, “Microsoft” şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Sərxan Həşimov qardaşının xatirəsinə həsr olunan “Shamkir Chess” superturnirin təşkilinin Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə idmanın digər növləri kimi, şahmata da yüksək diqqət və qayğısının bariz nümunəsi olduğunu deyib.

FİDE-nin və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, “Shamkir Chess 2019” turnirinin Təşkilat Komitəsinin rəhbəri Mahir Məmmədov çıxışında yarışın maraqlı partiyalarla zəngin olduğunu qeyd edib. O, vurğulayıb ki, Təşkilat Komitəsi yarışı Vüqar Həşimovun adına layiq, yüksək səviyyədə təşkil etməyə ciddi səy göstərib.

Bağlanış mərasimində ənənəvi olaraq Vüqar Həşimov Şahmat Akademiyasının təsis etdiyi “Ədalətli oyun” mükafatının qalibləri elan olunub. Qaliblərə - dünya çempionu Maqnus Karlsenə və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənova mükafatı Vüqar Həşimovun qardaşı Sərxan Həşimov təqdim edib.

Doqquz turdan ibarət turnirdə Maqnus Karlsen 7 xalla dördüncü dəfə qalib adını qazanıb. Dinq Liren və Sergey Karyakin 5, Aleksandr Qrişuk, Vişvanatan Anand və Teymur Rəcəbov 4,5, David Navara, Veselin Topalov 4, Şəhriyar Məmmədyarov 3,5, Aniş Qiri isə 3 xal toplayıb.

Superturnirin Təşkilat Komitəsinin rəhbəri Mahir Məmmədov yarışda birinci yeri tutan Maqnus Karlsenə “Shamkir Chess 2019”un kubokunu təqdim edib.

Sonra bağlanış mərasimi bədii hissə ilə davam edib.

Beləliklə, Azərbaycanın tanınmış şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan altıncı “Shamkir Chess” superturnirinə yekun vurulub.

Xatırladaq ki, norveçli dünya çempionu Maqnus Karlsen 2014-cü, 2015-ci və 2018-ci illərdə də turnirin qalibi olub. 2016-cı və 2017-ci illərdə isə Şəhriyar Məmmədyarov çempion adını qazanıb.

* * *

Mayın 1-də ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Naxçıvan Open 2019” şahmat festivalı start götürəcək. Naxçıvanda keçiriləcək festival çərçivəsində “A” (2250-dən yuxarı reytinqli şahmatçılar), “B” (2250-dən aşağı) və “C” (uşaqlar) turnirləri təşkil ediləcək.

Yarışlar mayın 10-dək davam edəcək.

* * *

Fransada Azərbaycanın da təmsil olunduğu beynəlxalq turnir başa çatıb.

Yarışda uğurla çıxış edən təmsilçimiz bürünc medala sahib olub. Turnirdə 9 turdan 7 xal toplayan Namiq Quliyev bürünc medala layiq görülüb.

# Karateçilərimiz yeni sınaq qarşısında

Azərbaycan karateçiləri daha bir mötəbər yarış ərəfəsindədirlər.

Əsas milli komandamızı həftəsonu Mərakeşin paytaxtı Rabatda Karate1 seriyasından Premyer Liqa turniri gözləyir. Aprelin 19-21-də keçiriləcək nüfuzlu yarışda 14 idmançımız iştirak edəcək.

Kumite üzrə baş məşqçi Bahəddin Kandaz, eləcə də, böyük məşqçilər Şahin Xudaverdiyev və Qurban Tağıyevin rəhbərlik etdiyi komandanın heyətində 9 idmançımız yer alıb. Yarışda ölkəmizi Firdovsi Fərzəliyev (-60 kq), Rafiz Həsənov və Hümmət Baxşəliyev (-67 kq), Rafael Ağayev (-75 kq), Ayxan Mamayev, Pənah Abdullayev və Turqut Həsənov (-84 kq), həmçinin Şahin Atamov və Asiman Qurbanlı (+84 kq) təmsil edəcəklər. Qadınların baş məşqçisi Denis Morozov isə Nuranə Əliyeva (-50 kq), İlahə Qasımova (-55 kq), Fəridə Abiyeva (-61 kq) və İrina Zaretskanın (-68 kq) çıxışına üstünlük verib.

Kata üzrə baş məşqçi Vahid Ayvazov isə Romah Heydərovun yarışa qatılmasını məqbul sayıb. Mərakeşdə liqa turnirinə yollanan heyətdə baş katib Mirhəsən Seyidov, beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov da var. Karate1 Premyer Liqa turnirinin Rabat mərhələsində 78 ölkədən 661 idmançı mübarizə aparacaq. Nəticələr dünya və olimpiya reytinq cədvəlinə təsir edəcək.

# “Nəhənglər”in Estoniya sınağı

Aprelin 18-də Estoniyanın paytaxtı Tallində sumo üzrə XXIII Avropa çempionatı start götürəcək. Qitə çempionatında 17 ölkədən 300-dən çox idmançı qüvvəsini sınayacaq. Yarışlarda ölkəmizi Camal Feyziyev (115 kq), Avropa çempionları Məhərrəm Eyvazov (60 kq) və Çingiz Səmədov (100 kq), qitə birinciliyinin mükafatçısı Cavid Feyziyev (115 kq) və Azərbaycan çempionu Nahid Vəliyev (60 kq) təmsil edəcəklər. İdmançılarımız yarışda federasiyanın prezidenti Samir Abdullayevin rəhbərliyi altında mübarizə aparacaqlar.

Çempionatda qarşılaşmaların idarə olunmasında Azərbaycanı beynəlxalq dərəcəli hakim Rəsul Həsənov təmsil edəcək.

**Bölgə xəbərləri**

# *Atletlər Xaçmazda bir araya gəliblər*

Xaçmaz Olimpiya İdman Kompleksində atletika üzrə zona yarışları keçirilib. Yarışda Xaçmaz, Quba, Qusar, Şabran, Xızı, Qobustan, Sumqayıt, Abşeron, Qubadlı məktəblərinin komandaları mübarizə aparıblar. Yarışlarda birinci yeri Quba rayon Qırmızı qəsəbə 1 nömrəli tam orta məktəbin komandası tutub. İkinci yerdə Qusar rayon Hil kənd 1 nömrəli tam orta məktəbin təmsilçiləri qərarlaşıblar. Üçüncü pillədə isə Xaçmaz rayon Yalama kənd tam orta məktəbin komandası yer alıb. Qaliblər diplomlarla təltif olunublar.

Zona yarışlarında birinci və ikinci yerləri tutan komandalar final mərhələsinə vəsiqə qazanıblar.

Turnir Ağcabədi rayon gənclər və idman idarəsinin və təhsil şöbəsinin birgə təşkilatçılığı ilə keçirilib.

* * *

İsmayıllı şəhər 3 nömrəli məktəbliseydə İsmayıllıda yaz çağırışına həsr olunan “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü üzrə ölkə çempionatının zona birinciliyi keçirilib.

Zona birinciliyində İsmayıllı, Şamaxı, Ağsu, Zərdab, Ucar, Ağdaş, Göyçay, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakənin təmsilçiləri iştirak ediblər.

Gənclər və İdman Nazirliyinin məsul işçisi Rəşad Rəsulov komandalara uğurlar arzulayaraq vurğulayıb ki, respublikamızda bu cür yarışlar davamlı olaraq keçirilir. Bu da gənclərdə və yeniyetmələrdə vətənpərvərlik hissinin güclənməsinə, onların Vətənin müdafiəsinə mükəmməl hazırlığına imkan verir.

Sonra 100 metr məsafəyə qaçış, 2000 metr məsafəyə kross, qumbara atma və turnikdə dartınma növləri üzrə keçirilib.

Gərgin və maraqlı keçən yarışlarda Qax rayonunun komandası birinci yerə layiq görülüb. Oğuz və Qəbələ rayonlarının komandaları müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar.

Hər üç komanda Göygöl rayonunda keçiriləcək respublika birinciliyinə vəsiqə qazanıblar.



* * *

Ağcabədi rayonunda, Mirzə Fətəli Axundov adına şəhər 3 saylı məktəb-liseyin idman zalında qızlar arasında voleybol üzrə rayon birinciliyi keçirilib. Birincilikdə 15 məktəbin komandası mübarizə aparıb. Gərgin və maraqlı idman mübarizəsinin yekununda Səməd Vurğun adına şəhər 4 saylı, Hacıbədəlli kənd və Məmməd Əsədov adına şəhər 5 saylı tam orta məktəblərin komandaları müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

Yarışda fəxri kürsüdə yer alan komandaların üzvlərinə Ağcabədi rayon gənclər və idman idarəsinin diplomları təqdim olunub.

## Yeniyetmə güləşçilərin Antalya uğuru

Antalyada yeniyetmə güləşçilər arasında keçirilən “Victory Cup” turnirinə yekun vurulub.

Yunan-Roma güləşçimiz Nihad Məmmədli (55 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Sərbəst güləşçilərimizdən Riad Aslanov gümüş, Ziraddin Bayramov (hər ikisi 55 kq) isə bürünc medal qazanıb.

Sərbəst güləşçilərin mübarizəsində Fərhad Kərimli (60 kq) çempion olub. Mamed Əhmədov (60 kq) və Kənan Heybətov (51 kq) yarışı üçüncü pillədə başa vurublar. Qızların turnirində Elnurə Məmmədova (53 kq) və Mərziyə Sadıqova (61 kq) gümüş medal qazanıblar. Yunan-Roma güləşçilərinin yarışında isə Elmir Əliyev (51 kq) fəxri kürsünün ikinci pilləsinə yüksəlib.

Beləliklə, Azərbaycan millisi yarışda 2 qızıl, 5 gümüş və 4 bürünc medal qazanıb. Beynəlxalq dərəcəli hakim Zaur Şərifov “Victory Cup”da ədaləti qoruyub.

## Aykido üzrə respublika seminarı

Azərbaycan Aykido Federasiyasının (AAF) prezidenti Fərhad Ələsgərovun rəhbərliyi ilə respublika seminarı keçirilib.

Azərbaycan Aykido Mərkəzində keçirilən respublika seminarına Fərhad Ələsgərov başçılıq edib. Tədbirdə respublikanın bir çox bölgələrindən 150 nəfər, o cümlədən Gəncə, Oğuz, Şəki, Göyçay, Lənkəran və Astaradan olan idmançı və məşqçilər qatılıblar. Seminarda Çexiya, Rusiya, İraq, İran idmançı və məşqçiləri də iştirak ediblər.

## Bakı birinciliyinin qalibləri müəyyənləşiblər

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən 12 nömrəli tam orta məktəbdə idman rəqsləri üzrə paytaxt birinciliyi keçirilib.

Birincilikdə “Azəri inciləri”, “Çinar”, “İmpuls”, “Olimp”, “Rovesnik” və “Aypara” idman rəqs təşkilatlarını təmsil edən 32 idmançı 3 yaş qrupunda 6 yarış proqram üzrə mübarizə aparıb.

Yekun nəticələrə əsasən, uşaqların birinci yaş qrupunda Vasiliy Lebedev və Sofiya Şefçenko qızıl medal qazanıblar. Uşaqlar arasında ikinci yaş qrupunda Amir Mirsadıx və Ayşə Atakişiyeva fərqləniblər. Yeniyetmələrin mübarizəsində Qaflan Abbasov və Anastasiya Kşinyakina fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qaliblər Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri ilə mükafatlandırılıblar.

## Bakıda Braziliya Ciu-Citsu üzrə beynəlxalq seminar təşkil olunub

Aprelin 8-də “Zabit Samedov Fight Club”da Braziliya Ciu-Citsu idman növü üzrə beynəlxalq seminar təşkil olunub. Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin dəvəti və təşkilatçılığı, Avrasiya Kombat Ciu-Citsu Federasiyası və “Zabit Samedov Fight Club”un texniki dəstəyilə baş tutan seminarın aparıcısı, dünyanın tanınmış Braziliya Ciu-Citsu məktəblərindən sayılan “Ludus” məktəbinin təsisçisi və rəhbəri Braziliya Ciu-Citsu idman növü üzrə 3-cü dan qara kəmər sahibi Aleksandr Deda Faria olub. Seminardan öncə Aleksandr Deda Faria Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyi və Avrasiya Kombat Ciu-Citsu Federasiyası rəsmiləri ilə Fəxri Xiyabana gedərək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, oraya gül dəstələri qoymuşdur. Qonaqlar daha sonra mərhum akademik Zərifə Əliyevanın da məzarına çiçəklər qoyublar. Sonra Şəhidlər Xiyabanına gedən qonağa 20 yanvar faciəsi, müstəqilliyin qanlı tarixi ilə bağlı geniş məlumat verilib. Buradan da Dağüstü parka gələn qonağa Bakının timsalında Azərbaycanda son illərdə geniş yenidənqurma və abadlıq işləri aparıldığı bildirilib. İdmançılar bundan sonra “Zabit Samedov Fight Club”a gəliblər. Seminarda bundan başqa qonaq qismində Zabit Səmədov, Eduard Məmmədov, Fariz Abdullayev kimi tanınmış idmançılar, dünya çempionları və ictimai xadimlər də iştirak ediblər. Seminarı Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin prezidenti Aqil Acalov açıq elan edib. O, əvvəlcə, dəvəti qəbul edib Bakıya gəldiyi üçün “Ludus” məktəbinin rəhbəri Aleksandr Deda Fariaya öz təşəkkürünü bildirib. A. Acalov bu seminarda məqsədin əsasən yerli və xarici idman mütəxəssisləri arasında təcrübə mübadiləsinin aparılması olduğunu və bunun da öz növbəsində Azərbaycanda bu idman növünün inkişafına təkan olacağını deyib. Daha sonra çıxış edən “Ludus” məktəbinin rəhbəri Aleksandr Deda Faria Bakıya səfərinin ona bəxş etdiyi təəssüratlardan, xalqımızın qonaqpərvərliyindən danışıb. İdmançılarla Braziliya Ciu-Citsu idman növü ilə bağlı danışan Ded Faria onlara bu idman növündə diqqət edilməsi lazım olan xüsusi nüansları açıqlayıb. Bundan sonra çıxış edən Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin təsisçisi və idarə heyətinin sədri Taleh Həsənov da braziliyalı idmançıya dəvəti qəbul etdiyi üçün öz dərin minnətdarlığını bildirib. O, “Ludus” məktəbi ilə əməkdaşlıq etməkdən məmnunluq duyduğunu, bundan sonra da ölkəmizdə belə yüksək səviyyəli seminarların təşkil



olunması üçün əlindən gələni edəcəyini deyib. Tədbirdə çıxış edən Zabit Səmədov da Azərbaycanda idmana göstərilən xüsusi qayğıdan danışaraq bu cür mötəbər və beynəlxalq seminarın Bakıda keçirilməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirib. Daha sonra Avrasiya Kombat Ciu-Citsu Federasiyasının birinci vitse-prezidenti Rəsul Məmmədov da idmançıları salamlayıb və ustadı Bakıda görməkdən şad olduğunu deyib. Tədbirdə çıxış edən Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyinin vitse-prezidenti Murad Cəfərov tədbirlə bağlı öz ürək sözlərini deyərək tədbir iştirakçılarını və qonaqları salamlayıb. O, idmançılara bundan sonrakı həyatlarında uğurlar arzulayıb. Daha sonra Aleksandr Deda Faria uzun illər ərzində qazandığı təcrübəni azərbaycanlı idmançılarla paylaşaraq onlara bu idman növündə irəliləməyin sirlərini öyrədib. Seminardan sonra iki tərəf arasında aparılan danışıqlar nəticəsində “Ludus” məktəbi ilə gələcəkdə də geniş əməkdaşlıq aparılması ilə bağlı razılıq əldə olunub və Azərbaycan Braziliya Ciu-Citsu Klubu İctimai Birliyi də artıq “Ludus” məktəbinin üzvü statusunu qazanıb.

## III "Raquf Orucov Kuboku" beynəlxalq turnirində 7 xarici klub iştirak edəcək



Bu il üçüncü dəfə keçiriləcək "Raquf Orucov Kuboku" ("Raguf Orujov Cup") beynəlxalq cüdo turnirində 16 yerli və xarici klub komandası iştirak edəcək. Turnirin Təşkilat Komitəsinin xarici ölkə təmsilçilərinə göndərdiyi dəvətlərə cavab gəlməkdədir. Belə ki, Rusiya, Türkiyə, İran, Qazaxıstan və Gürcüstanın klub komandaları yarışlarda iştirak edəcəklərini artıq təsdiqləyiblər. Rusiyanı turnirdə Qroznı, Dərbənd və Mahaçqaladan olan komandalar təmsil edəcəklər.

"Azman Holdinq"in tərkibinə daxil olan "Judo Club 2012" idman klubunun əfsanəvi kəşfiyyatçı, şəhid polkovnik-leytenant Raquf Orucovun və silahdaşlarının xatirəsinə ehtiram əlaməti olaraq təşkil etdiyi ənənəvi beynəlxalq turnir aprelin 17-də Bakı İdman Sarayında keçriləcək.

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə təşkil edilən turnirdə yaşı 21-dək (U-21) olan gənclərdən ibarət klub komandaları birincilik uğrunda yarışacaqlar.

Əsas məqsədi gənclərə vətənpərvərlik hissi və döyüş ruhu aşılamaq, onların Vətənin müdafiəsinə hazırlıq səviyyəsini artırmaq, həmçinin idmançılar arasında dostluq və yoldaşlıq hisslərini möhkəmləndirmək olan beynəlxalq turnir artıq ölkəmizin idman həyatında mühüm rol oynayır. Əvvəlki iki ildəki kimi, bu il də turnirə geniş ictimai maraq var. Turnirin açılış və mükafatlandırma mərasimində dövlət və hökumət nümayəndələrinin, parlament üzvlərinin, tanınmış idmançıların, şəhid ailələrinin, Qarabağ müharibəsi veteranlarının iştirakı gözlənilir.

Azərbaycan Ordusunun 2016-cı il Aprel zəfəri müasir hərb tariximizin şanlı səhifəsidir. Bu zəfər nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində indi üçrəngli bayrağımız dalğalanır. Öz rəşadətləri ilə gənclərimizə örnək olan Raquf Orucovun və digər şəhidlərin xatirəsi isə xalqımızın qəlbində və yaddaşında əbədi yaşayacaq.



## Yığma komandamız Sloveniyaya yollanacaq

Aprelin 18-dən 22-dək Yelkənli İdman Federasiyasının yığma komandası "Optimist" və "Laser" sinifləri üzrə keçiriləcək "32-th Izola Spring Cup" və "Easter Regata" yarışlarında iştirak etmək üçün Sloveniyaya yollanacaq.

Yarışlardan əvvəl yelkənçilərimiz aprelin 14-dən 18-dək beynəlxalq səviyyəli məşqçi Draqan Gasicin rəhbərliyi ilə təlim-məşqlərdə iştirak edəcəklər. On dörd ölkədən 447 idmançının qatılacağı yarışlar komandamız üçün Avropa çempionatına hazırlıq məqsədi daşıyacaq.

Azərbaycanı yarışlarda "Optimist" sinfi üzrə Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Murad Hacızadə, Murad İsmayılov, Səxavət Əzimov, "Laser" sinfi üzrə Murad Allahverdi və İsmayıl Kərimov, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı, köməkçi məşqçi Anton Vilyayev təmsil edəcəklər.

## Açıq Orta Asiya çempionatında uğurlu nəticə

Özbəkistanın paytaxtı Daşkənddə pencak-silat üzrə açıq Orta Asiya çempionatı keçirilib. Azərbaycan millisi turnirə 3 idmançı ilə qatılıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qadın idmançımız Nurtəkin Məhəmmədli (50-55 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Milli komandamızın üzvləri Elxan Cəfərov (60-65 kq) və Rəsul Hümbətov (65-70 kq) gümüş medala sahib olublar.

# Gənc məşqçi-müəllimlərə metodiki tövsiyələr

Məşqçi yalnız zəkaya deyil, həm də hisslərə təsir etməyi bacarmalıdır. Uzun illik təcrübəyə söykənərək deyə bilərəm ki, uşaqların sevdiyi idman növü ilə müntəzəm məşğul olaraq gələcəkdə güclü idmançı kimi yetişməsi üçün bir çox amillər vacibdir. Bunlardan ən əsası idman növünə böyük həvəs göstərmək, əməksevərlik, məşqlərə ciddi yanaşmaqdır. Həmçinin məşq etmək üçün normal maddi-texniki bazanın, öz işini dərindən bilən, uşaqlarla iş qurmağı bacaran peşəkar məşqçi-müəllimin olması mütləqdir. Ədalət naminə demək lazımdır ki, yeni məşqlərə başlayan (ibtidai hazırlıq qrupu, 10-12 yaş) uşaqlarla təcrübəli məşqçilərin iş aparması həmişə müsbət nəticə verir. Əksinə, belə qruplarla təcrübəsiz, gənc məşqçilərin iş aparması o qədər də effektli olmur. Gənc məşqçi işə həvəslə girişir, bildiklərini həvəslə öyrətməyə can atır, eyni zamanda, məşqə yenicə başlayan uşaqlar tez bir zamanda hər şeyi öyrənmək istəyirlər. Bu isə müəyyən vaxtdan sonra xoşagəlməz halların meydana çıxmasına səbəb olur. Məhz bunları nəzərə alaraq, gənc məşqçi-müəllimlərə tövsiyələr vermək istərdik. Onlara məsləhət görərdik ki, öyrətmədə (tədrisdə) heç vaxt tələsməsinlər. Uşaqların həvəslərinə, təxəyyülünə, fantaziyasına açılan pəncərəni tədricən açsınlar, onu dərhal, taybatay açmaq olmaz. Başqa sözlə, öyrətmə elə getməlidir ki, öyrədilən hərəkətlərin və ya fəndlərin çoxluğu uşaqları heç zaman çaşdırmasın, öyrəndiklərini ardıcıl və mükəmməl öyrənsinlər. Məşqdə öyrədilən hərəkətlər və fəndlər əvvəlkilərdən mürəkkəbliyi və maraqlılığı ilə fərqlənməli, hər keçirilən məşq əvvəlki məşqin bir növ davamı olmalıdır. Məşqlər gündən-günə daha maraqlı olmalıdır. Güləşmədə (xüsusilə sərbəst güləşdə) fəndlər hədsizdir (müdafiə fəndləri, əks fəndlər, kombinasiyalar). Onların hamısını birdən uşaqlara öyrətmək lazım deyil: Uşaqların hər şeyi birdən öyrənmək həvəsi faydasız olar. Gənc məşqçi-müəllimlərə məsləhət görərdik ki, uşaqların qarşısında ətraf aləmi, eləcə də, elmin bir sahəsi olan güləşməni elə açmaq



lazımdır ki, bu sahə heyranlıq doğursun. Hər gün məşqlərdə gördükləri, eşitdikləri həyatın kiçik bir hissəsi-göy qurşağındakı rənglər kimi uşaqların gözləri qarşısında canlansın. Həmişə növbəti məşqə deyilməmiş söz, öyrədilməmiş fənd saxlayın ki, növbəti məşq uşaqları cəlb etsin. Təlim o vaxt uşaqların mənəvi həyatının bir hissəsinə çevrilir ki, o, həyati olsun, uşaqların gündəlik həyatda eşitdikləri, gördükləri ilə üst-üstə düşsün. Gənc məşqçilər unutmamalıdır ki, idman məktəblərində, ilk növbədə, insani keyfiyyətlərə diqqət ayrılmalıdır. Gənc məşqçilər uşaqların xarici görünüşü ilə yanaşı, onların hər birinin daxili aləmini də öyrənməlidirlər. Məşqə gələn uşağın bu idman növünə həvəsini, onun fiziki inkişafını, istedadını, əqli və zehni inkişafını, təxəyyülünü, təfəkkürünü, psixoloji durumunu bilmək vacibdir. Uşağın yalnız gündəlik məşqlər hesabına gələcəkdə yüksək nəticələr əldə edəcəyinə ümid bəsləmək olmaz. Unutmaq olmaz ki, təlim-tərbiyədə başlıca və ikinci dərəcəli məsələ yoxdur. İdman məktəblərində hər şey- tərbiyə, təlim, yarışlar, qarşılıqlı münasibətlər, qidalanma, istirahət-başlıcadır, vacibdir. Gənc məşqçilər bilməlidir ki, uşaqlıq insan həyatının ən mühüm, təkrarolunmaz dövrüdür. Bu dövrdə uşaqların ətraf mühiti qavramaq, dərk etmək qabiliyyəti, gündəlik gördükləri fiziki və zehni işlər onların sağlamlığından çox asılıdır. Bu asılılıq çox incə və çətin dərk ediləndir. Bu baxımdan yenicə məşqə başlayanların daxili mənəvi aləminin dərindən öyrənilməsi məşqçilərin mühüm vəzifələrindən biridir. Təcrübə göstərir ki, məşqçi məşğul olanlara fərdi yanaşmasa, onların daxili aləminə yol tapmasa, keçirilən məşqlərin müsbət nəticəsi olmayacaq. Hər iki tərəfin (məşqçi və idmançı) görülən işə sonsuz məhəbbəti, gündəlik səyi və zəhməti, inam, dözüm , illərlə çəkilən əziyyət uğura yol aça bilər. Əlbəttə, bu çətin prosesdə məşqçinin "aləti" onun bilik və bacarığıdır. Əfsuslar olsun ki, bəzən güləşməni çox yaxşı bilən, öyrətməyə böyük səy göstərən, kifayət qədər təcrübəyə malik, uzun illər bu sahədə çalışan məşqçilər də yüksək dərəcəli idmançılar hazırlamaqda çətinlik çəkirlər. Bunun bir çox səbəbləri var. Bunlardan ən birincisi, məşqçinin uşaqlarla qarşılıqlı əlaqəni düzgün qura bilməməsidir. Bəzən məşqçilər uşaq qəlbinin gizli sirlərini, sevgisini və kədərini duya bilmirlər. Başqa sözlə, məşqçi fikrən özünü uşaq yerinə qoya bilmir. Gənc məşqçilər çox dahiyanə deyilmiş bir fikri unutmamalıdırlar : "Uşaqların mənəvi aləminə enmək yox, bu aləmə yüksəlmək lazımdır". Məşqçilər bu fikrin mahiyyətini dərindən öyrənməlidirlər.

Ümumtəhsil məktəblərində dərs şagirdlərin dünyanı dərk etməsi prosesinin təşkili formasıdır. İdman məktəblərində keçirilən məşqlər isə təlimin təşkil olunmuş formasıdır. Məşq-ilboyu planlı və məqsədyönlü şəkildə, ardıcıl surətdə, yüksək nəticələrin əldə edilməsi üçün aparılan prosesdir. İdman məktəblərini uşaqların yalnız bilik və bacarıqlara yiyələndiyi bir yer kimi qiymətləndirmək düzgün deyil. Təlim (məşq) uşağın mənəvi həyatının çox mühüm hissəsidir, lakin yeganə sahəsi deyildir. İdman məktəbləri uşaq kollektivinin çoxşaxəli mənəvi həyatının əks olunduğu məkandır: burada məşqçini və idmançını maraq, meyillər birləşdirir.

*Hümbət Cavadov,*
*sərbəst güləş üzrə*
*SSRİ idman ustası*

# Formula 1

## Yubiley Qran-Prisini Hamilton qazandı

Aprelin 14-də Çinin Şanxay şəhərində keçirilən Formula 1 üzrə 1000-ci Qran-Pri "Mersedes" komandasının böyük qələbəsi ilə başa çatıb.

Bu komandanın pilotları - britaniyalı Luis Hamilton və finlandiyalı Valtteri Bottaş finiş xəttinə müvafiq olaraq birinci və ikinci çatıblar. Üçüncü yeri isə "Ferrari"nin almaniyalı pilotu Sebastian Fettel tutub.

Cari mövsümün üçüncü Qran-Prisində Luis Hamilton 56 dövrəni 1 saat 32 dəqiqə 6,350 saniyəyə qət edib. Onun komanda yoldaşı Valtteri Bottaş finiş xəttinə liderdən 6,552 saniyə gec çatıb. Sebastian Fettel isə liderə 13,744 saniyə fərqlə uduzub.

"Toro Rosso"nun pilotu Daniel Kviat və "Reno"nun sürücüsü Niko Hülkenberq mübarizəni başa çatdıra bilməyiblər.

Cari mövsümün ilk iki Qran-Prisi də "Mersedes" komandasının qələbəsi ilə başa çatıb. Belə ki, martın 17-də Avstraliya Qran-Prisində Valtteri Bottaş, martın 31-də Bəhreyn yarışında isə Luis Hamilton qalib gəlib.

Beləliklə, üç Qran-Pridən sonra pilotların yarışına 44 xalla Valtteri Bottaş liderlik edir. Luis Hamilton ondan 1 xal geri qalır. "Red Bull Rasing Honda"nın hollandiyalı pilotu Maks Ferstappen 27 xalla üçüncü, "Ferrari"nin Monakodan olan sürücüsü Şarl Lekler isə 26 xalla dördüncü pillədə qərarlaşıblar.

Konstruktorların yarışında isə "Mersedes" komandası 130 xalla birinci sıradadır. İkinci yerdə qərarlaşan "Ferrari" komandasının 73, üçüncü pillədəki "Red Bull Rasing Honda"nın 52 xalı var.



Formula 1 üzrə dünya çempionatının növbəti - dördüncü Qran-Prisi aprelin 26-28-də Bakıda keçiriləcək. Bu mötəbər yarışla əlaqədar Bakıda artıq son hazırlıq işləri görülür.

* * *

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) aprelin 26-28-də təşkil olunacaq Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində fəaliyyət göstərən könüllülər arasında müsabiqə keçirir. Əməliyyat Şirkəti qalibləri avqustun 2-4-də keçiriləcək Macarıstan Qran-Prisinə göndərəcək.

Səfər zamanı könüllülər Macarıstan Qran-Prisini birbaşa izləməklə yanaşı, bu yarışın təşkilatçıları ilə təcrübə mübadiləsi aparmaq imkanına sahib olacaqlar. Könüllülərin səyahət, qonaqlama və yarışda iştirakla əlaqədar bütün xərcləri Əməliyyat Şirkəti tərəfindən qarşılanacaq.

Müsabiqənin keçirilməsində əsas məqsəd Azərbaycan Qran-Prisi zamanı fəallığı ilə seçilən könüllüləri mükafatlandırmaqdır.

Müsabiqədə könüllülərin fəaliyyəti üç əsas istiqamət - könüllülük fəaliyyətinə dair tədbirlərdə iştirak, yarış zamanı göstərilən fəallıq və bütün mərhələlər üzrə keçirilən ümumi imtahan əsasında qiymətləndiriləcək. Bütün meyarlar üzrə ən yüksək nəticə əldə edən könüllülər müsabiqənin qalibi olacaqlar.

* * *

Aprelin 26-28-də Bakı şəhər halqasında Formula 2 yarışları keçiriləcək.

Yarışda 10 komandadan 20 pilot birincilik uğrunda mübarizə aparacaq.

Aprelin 26-da saat 11:30-da sərbəst yürüşlər təşkil olunacaq. Həmin gün saat 16:50-də təsnifat yarışlarına start veriləcək. Aprelin 27-də saat 13:10-da birinci, bir gün sonra isə 14:15-də ikinci yarış keçiriləcək. İlk yarışda pilotlar 32, növbəti yürüşdə isə 23 dövrə vuracaqlar.

Bəhreyndə təşkil olunan ilk yarışdan sonra hesabında 37 xal olan "UNİ-Virtuosi Rasing" komandasının üzvü italiyalı Luka Qiotto pilotların sıralamasında birinci pillədə yer alıb. "DAMS"ın pilotları Nikolas Latifi (Kanada) 35 xalla ikinci, braziliyalı Serxio Sette Kamara isə 27 xalla üçüncüdür.

On bir mərhələdən ibarət yarışa sentyabrın 27-29-da Rusiyanın Soçi şəhərində yekun vurulacaq.

* * *

"Zandvort" avtodromunda keçirilən Hollandiya Qran-Prisi Formula 1-ə qayıdacaq. Bu trasda qayıdışdan sonra ilk yürüş 2020-ci ilin mayında olacaq.

Avtodromun sahiblərinin Formula 1 rəhbərliyi ilə razılaşması beş il müddətinə nəzərdə tutulub.

Bu ərəfədə məlum olub ki, Formula 1 rəhbərliyi "Zandvort" avtodromuna yenidən Niderland Qran-Prisini keçirməyi təklif edib. Həmin avtodromla yanaşı, Formula 1 Niderland mərhələsini keçirməyə bu ölkədəki "Assene" avtodromu da iddialıdır. Hazırda burada MotoGP çempionatının yürüşləri təşkil olunur. Zandvort şəhərinin bələdiyyə şurası bəyan edib ki, burada Formula 1 yürüşünün keçirilməsinə 4 milyon avro ayırmağa hazırdır.

Formula 1 "Zandvort" avtodromunda 1952-1985-ci illərdə keçirilib.

# FUTBOL

## “Neftçi” zirvəni əldən verdi



Futbol üzrə Topaz Premyer Liqasında 24-cü turun oyunları keçirilib. Turun açılış görüşü “Zirə” - “Sumqayıt” oyunu ilə başlayıb.

Görüş meydan sahiblərinin qələbəsi ilə başa çatıb - 2:0.

“Zirə”nin heyətində Xulio Sezar Rodriqez (33) və İlkin Qırtımov (90+1) fərqləniblər.

Turun növbəti oyununda çempionluğa iddialı “Qarabağ” debütant “Sabah”ı qəbul edib. Qarşılaşma Ağdam təmsilçisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Görüşdə ilk qolu 10-cu dəqiqədə Riçard Almeyda vurub. Matçın 65-ci dəqiqəsində Filip Ozobiç fərqi iki topa çatdırıb. Oyunun 77-ci dəqiqəsində Mahir Mədətov hesab arasındakı fərqi daha da artırıb.

Turun ikinci oyun günündə “Keşlə” öz meydanında “Qəbələ” klubunu qəbul edib. “ASK Arena” stadionunda reallaşan görüş qonaqların 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Maraqlı mübarizə şəraitində keçən görüşün birinci hissəsində hesab açılmayıb. Fasilədən dərhal sonra 46-cı dəqiqədə Ceyms Adeniyi qapıçı ilə təkbətək mübarizədən qalib ayrılıb. Matçın 65-ci dəqiqəsində Davit Volkov komandasının üstünlüyünü artırıb. Qarşılaşmanın 76-cı dəqiqəsində paytaxt təmsilçisi hesab arasındakı fərqi azaldıb. Con Kamara künc ötürməsindən sonra dəqiq zərbə ilə adını tabloya yazdırıb.

XXIV turun son oyununda “Səbail” klubu çempionluğa iddialı “Neftçi”ni qəbul edib. Görüş 2:2 hesabı ilə başa çatıb.

Hesabı 50-ci dəqiqədə qonaqlar açıb. “Neftçi”nin heyətində Mirabdulla Abbasov fərqlənib - 0:1. Fasilədən sonra meydan sahiblərinin baş məşqçisi Aftandil Hacıyevin əvəzetməsi uğurlu olub. Fəhmin Muradbəylinin yerinə meydana girən Ədilxan Qarəhmədov 81-ci dəqiqədə bərabərlik topunu vurub - 1:1. Vurulan qoldan 4 dəqiqə sonra isə Ağabala Ramazanov meydan sahiblərini önə çıxardıb - 2:1. Bu da oyunda son qol olmayıb. Belə ki, ikinci hissəyə artırılmış vaxtın sonuncu dəqiqəsində Mamamdu Mboc bərabərlik qolunu vurub - 2:2.

Final fitindən sonra hakimə iradını bildirən “Səbail”in qapıçısı Aleksandr Rıbka qırmızı vərəqə alıb.

Bu heç-heçədən sonra xalını 35-ə çatdıran “Səbail” elə 3-cü pillədə qərarlışıb. Çempionluq yolunda ciddi xal itkisi ilə üzləşən “Neftçi” isə 52 xalla 2-cidir. “Qarabağ” isə “Sabah” üzərində böyükhesablı qələbədən sonra xallarının sayını 54-ə çatdıraraq çempionatın vahid lideri olub.

## Çempionlar Liqası: 1/4 mərhələdə ən azı iki ingilis komandası yarışla vidalaşacaq

Bu gün və sabah UEFA Çempionlar Liqasının 1/4 final mərəhsinin cavab qarşılaşmaları keçiriləcək. Bununla da ən güclü komandaların finala gedən yolunda zəiflər mübarizəni dayandıracaq. Amma nəzərə almaq lazımdır ki, bu mərhələyə asan və zəif komanda gəlib çıxa bilməzdi. Lakin iki güclünün arasında bir zəif olmalıdır. 1/4 final mərhələsinin ilk görüşündə “Barselona” “Mançester Yunayted”in müqavimətini qıra bilmişdi. Lakin minimum hesablı qələbə hələ növbəti mərhələ üçün yetərli sayılmır. Nəzərə alsaq ki, ÇL-də mübarizə aparan yeganə İspaniya təmsilçisi cavab oyununu doğma azarkeşlər önündə keçirəcək, onda “Barselona” çətin ki, bu imkanı əldən versin. O ki qaldı “Mançester Yunayted”ə, bu komanda İngiltərə də keçirilən ilk görüşdə elə də iddialı görünmədi. Matçı seyr edənlərə elə təsir bağışladı ki, sanki, “Barselona” öz evində oynayır. Bu baxımdan belə nəticəyə gəlmək olar ki, İspaniya klubu bu cütün cavab görüşündə əsas favoritdir. Günün növbəti görüşü isə daha böyük maraq kəsb edir. “Ayaks” komanda həmin görüşdə onsuz həm məğlubiyyətə uğradı, həm də vaxtından əvvəl çempion ola bilmədi. Halbuki turinlilərə çempion olmaq üçün bir xal kifayət edirdi. Görünür, Alleqrinin komandası bu qələbəni “Ayaks” səddini keçdikdən sonra qazanmaq istəyir. “Ayaks” isə rəqibdən fərqli olaraq əsas heyətlə elə həmin gün “Ekselsior”la görüşdə böyük hesablı qələbə əldə etmişdi - 6:2. Bəlkə də, fərq elə bundadır.



“Enfild” stadionunda 2 top vuraraq qələbə qazanan “Liverpul” bu dəfə “Draqao”da Portu ilə üz-üzə gələcək. Yurgen Kloppun komandasını ən azı qollu heç-heçə də qane edir.

“Ayaks” bu dəfə Turində öz bacarığını göstərməyə çalışacaq. Amsterdam təmsilçisi “Yuventus”la səfərdə fərqlənməyə cəhd edəcək. Cütün qalibi adı uğrunda favorit hələ də dəqiq deyil. Nəzərə alsaq ki, “Ayaks” əvvəlki mərhələdə “Real”a evdə uduzub, səfərdə böyük hesabla qalib gəlib, deməli amsterdamlılar Turində də asan təslim olmayacaqlar. ÇL-də çempionluğa neçə ildir ki, həsrət qalan “Qoca Sinyora” çətin ki, bu mərhələdə uduzsun. Buna görə həttə şənbə günü A seriyasında “Spal”a qarşı görüşdə heyətin əsas üzvlərinə istirahət vermişdi. Ronaldodan asılı vəziyyətə düşən

Amma bu mövsümün tapıntısı olan “Portu” qələbə üçün son dəqiqələrə qədər mübarizə aparacaq. Mərhələnin daha bir matçı “Mançester Siti” və “Tottenhem” arasında təşkil olunacaq. İlk görüşdə bir qol fərqi ilə qələbə qazanan Maurisio Poçettinonun komandası səfərdə də fərqlənmək niyyətindədir. Rəqib meydanında vurulacaq bir qol növbəti mərhələ üçün kifayət edə bilər. Lakin “Tottenhem”in hücumçusu Harri Keynin zədəli olması komanda üçün böyük itki sayılır. Bütün bu deyilənlər sadəcə ehtimaldır. Hər şey matçlarda 90 dəqiqənin fiti səslənəndə müəyyənləşəcək.

## Transfer xəbərləri

“Tottenhem”in başa məşqçisi yeni mövsümdən etibarən klubu tərk edə bilər. “Olimpiya dünyası” qəzeti “Mundo Deportivo”ya istinadən bildirir ki, argentinalı məşqçi “Bavariya”nın diqqət mərkəzinə düşüb. O, xorvatiyalı həmkarı Niko Kovaçı əvəzləyə bilər.

* * *

“Atletiko”nun hücumçusu Antuan Qrizmanın “Barselona”ya keçidi baş tutmaya bilər. “Cadena Ser” radiosunun yaydığı məlumata görə, heyətdə yer alan kataloniyalı futbolçular dünya çempionunun “Barselona”ya gəlişinə etiraz edirlər. Çünki Qrizmann ötən mövsüm bu klubda oynamaqdan imtina etmişdi.

* * *

“Bavariya”nın kolumbiyalı vinqeri Hames Rodriqes yenidən “Yuventus”un diqqət mərkəzinə düşüb. Müqavilə ilə Madrid “Real”ına məxsus olan yarımmüdafiəçi üçün turinlilər 40-50 milyon avroluq müqavilə təklif etməyə hazırlaşırlar. Bunun üçün “Yuventus” hər iki tərəfdən razılıq əldə etməyə çalışır.

* * *

İtaliyanın “Fiorentina” klubunun rəhbərliyi yenidən Vinçenzo Montellanı baş məşqçi təyin edib. Yeni müqaviləyə əsasən o, 2021-ci il iyunun 30-na qədər bu vəzifədə çalışacaq. Xatırladaq ki, “Roma”dan kənarlaşdırılan Montella bundan əvvəl - 2012-2015- ci illərdə “bənövşəyilər”in baş məşqçisi olub.

* * *

PSJ klubunun sabiq məşqçisi Loran Blan karyerasını İspaniyada davam etdirə bilər. Belə ki, fransalı mütəxəssis yayda “Sevilya”nın baş məşqçisi olmaq üçün ən real namizəd sayılır. Əgər “Sevilya” növbəti mövsümdə UEFA Çempionlar Liqasına birbaşa vəsiqə əldə edə bilməsə Loran Blan hazırki baş məşqçi  Xoakin Kapparosu əvəz edə bilər.

* * *

“Bavariya”nın polşalı hücumçusu Robert Levandovski hazırki klubu ilə müqaviləni yeniləməyə razılıq verib. Bu barədə futbolçunun agenti Pini Zahavi məlumat verib. Qeyd edək ki, “Bavariya” klubunun rəhbərliyi Levandovski ilə müqavilənin hələ uzun müddət davam edəcəyini bildirmişdi.

* * *

“Lion” klubunun baş məşqçisi yayda dəyişə bilər. Fransa təmsilçisi “River Pleyt”lə “Libertadores” kubokunu qazanan Marselo Qalyardonun heyətə rəhbərlik etməsini istəyir. O, bu vəzifədə Bruno Jeneziunu əvəzə edə bilər.

* * *

“Real”ın skautları “Benfika” - “Ayntraxt” (4:2) matçında iştirak ediblər. Məqsəd UEFA Avropa Liqasında çıxış edən “Ayntraxt”ın iki futbolçusu - Luka Yoviç və Joau Felişi izləməkdir. Qeyd edək ki, Madrid klubu hər iki futbolçunu heyətə cəlb etməyi planlaşdırır.

* * *

“Roma”nın hücumçusu Patrik Şik Dortmund “Borussiya”sının diqqət mərkəzindədir. Artıq Almaniya təmsilçisinin rəhbərliyi çexiyalı futbolçu ilə danışıqlara




başlayıb. Qeyd edək ki, futbolçunun “Roma” ilə müqaviləsi 2022-ci ildə başa çatır.

* * *

“Yuventus” futbolçusu Paulo Dibalanı satmağa hazırdır. Turin klubu “Benfika”nın hücumçusu Joau Feliksi almaq üçün argentinalı oyunçunu satmağı planlaşdırır. “Yuventus”a 19 yaşlı futbolçunun transferi üçün ən azı 100 milyon avro lazım olduğu vurğulanıb. Klub Dibalanı sataraq Feliksi heyətinə cəlb etməyi düşünür. Qeyd edək ki, Dibalanın “Yuventus”la müqaviləsi 2022-ci ilin yayında başa çatır.

### UEFA rəsmisindən maraqlı açıqlama

Bir müddət əvvəl Almaniya Futbol İttifaqının rəhbərliyindən istefa verən Raynhard Qrindel UEFA və FİFA-dakı vəzifələrin də tərk edə bilər.”İstəyirəm məndən yaxşılar və iddialı kadrlar bu vəzifələrdə işləsinlər. Onlar bununla görülən işləri canlandırsın. Hər şey futbolun nüfuzunu artırsın”, deyə Qrindel yerli mətbuata verdiyi müsahibəsində bildirib. Qeyd edək ki, Raynhard Qrindel UEFA-nın vitse-prezidenti, FİFA-nın isə İcraiyyə Komitəsinin üzvüdür.

### “Geridönüşümüz möhtəşəm olacaq”

“Bilmirəm bu şayiə haradan yayılıb. Amma heç bir həqiqətə uyğun deyil. Mən “Real”da çox xoşbəxtəm. Çoxları elə başa düşür ki, “Real” əvvəlki qüdrətini itirib. Əsla belə düşünməyin. Biz yenidən qayıdacağıq. Geridönüşümüz möhtəşəm olacaq”. Bu sözləri Madrid “Real”ının almaniyalı yarımmüdafiəçisi Toni Kross deyib. Futbolçu bildirib ki, son günlərdə onun komandanın tərk etməsi barədə söz-söhbətlər heç bir həqiqəti özündə əks etdirmir.

### Söyüşə görə mövsümü vaxtından əvvəl başa vuracaq

İspaniyanın Futbol İttifaqı “Atletiko”nun futbolçusu Dieqo Kosta ilə bağlı yekun qərar verib. Belə ki, braziliya əsilli futbolçu “Barselona” ilə görüşdə hakim Hil Mansanonu söyüdüyü üçün 8 oyunluq cəzalandırılıb. Nəzərə alsaq ki, La Liqada mübarizənin başa çatmasına 7 tur qalıb, deməli, İspaniya millisinin üzvü üçün mövsüm bitmiş sayılır.

Qeyd edək ki, hazırda  “Atletiko” rəhbərliyi Kosta haqqında bu qərarın dəyişilməsini tələb edirlər.



### “Sportinq”in stadionuna Kriştianu Ronaldonun adı verilə bilər



Portuqaliyanın “Sportinq” futbol klubunun rəhbərliyi komandanın stadionuna Kriştianu Ronaldonun adını vermək qərarına gəlib.

Hazırda “Jose Alvalade” adlanan stadionun adının “Jose Alvalade CR7” kimi dəyişdiriləcəyi iddia olunur. Bununla “Sportinq”in əlavə gəlir əldə etmək istədiyi bildirilir.

Qeyd edək ki, Portuqaliya millisinin 34 yaşlı hücumçusu “Sportinq”in aşağı yaş qruplarında oynadıqdan sonra 2002-ci ildə əsas komandada debüt edib. Ronaldo “Sportinq”dən 2003-cü ildə 19 milyon avro qarşılığında “Mançester Yunayted”ə transfer olunub. Hazırda “Yuventus”da forma geyən portuqaliyalı hücumçu cari mövsümdə keçirdiyi 36 oyunda 24 dəfə fərqlənib.



# Dünya-idmanı

## Kliçko 100 milyon dollar qarşılığında karyerasını bərpa edə bilər



Keçmiş dünya çempionu Vladimir Kliçko karyerasını 100 milyon dollara bərpa edə bilər.

Bu barədə 43 yaşlı boksçunun böyük qardaşı Vitali Kliçko məlumat verib. O qeyd edib ki, Vladimir Kliçkoya 100 milyon dollarlıq döyüş təklifi gələcəyi təqdirdə o, rinqə qayıtmaq barədə düşünə bilər.

Qeyd edək ki, ukraynalı boksçu 2017-ci ilin avqustunda karyerasını başa vurub. O, Beynəlxalq Boks Federasiyası, Dünya Boks Assosiasiyası və Dünya Boks Təşkilatının versiyaları üzrə ağır çəki dərəcəsində dünya birincisi olub. Kliçko 2015-ci ilin noyabrında Tayson Fyuriyə uduzaraq dünya çempionu titulunu itirib. 2017-ci il aprelin 29-da Coşuaya qarşı keçirdiyi son döyüşündə isə ukraynalı boksçu 11-ci raundda texniki nokautla məğlub olub. Onun hesabında olan 64 qələbədən 53-ü nokautla qazanılıb. Ukraynalı cəmi 5 döyüşdə məğlub olub.

## 1 milyard avroluq müqavilə

İspaniyanın "Real" futbol klubu sponsoru "Adidas" şirkəti ilə yeni müqavilənin imzalanmasına dair danışıqlar aparır.

10 il müddətinə bağlanacaq müqavilənin məbləği 1 milyard avrodur.

Qeyd edək ki, "Nike" şirkəti sponsorluq müqaviləsinə görə hər il "Barselona"ya 155 milyon avro ödəyir. "Mançester Yunayted" isə "Adidas" şirkətindən ildə 94 milyon avro alır.




## Revanş döyüşünün şərti açıqlandı

UFC çempionu Həbib Nurməhəmmədov irlandiyalı Konor Makqreqorla revanş döyüşün şərtlərini açıqlayıb. Həbib Nurməhəmmədov revanş döyüşünün keçirilməsi üçün rəqibinin başqa döyüşdə qalib gəlməsini tələb edib.

"Sən və sənin komandan 2016-cı ildən titullar qazanmamısınız. İlk növbədə sən qalib gəlməlisən. Bundan sonra revanş döyüş haqqında söhbət edə bilərik", - deyə o vurğulayıb.

Qeyd edək ki, Konor Makqreqor sosial şəbəkədə Həbib Nurməhəmmədovu promouşenin ən yaxşı döyüşçüsü hesab etmədiyini açıqlayıb. O bildirib ki, revanş döyüş bütün suallara aydınlıq gətirəcək.



## Həftəlik idman qoroskopu

**Qoç**
Bu bürcdən olan idmançılar liderliyi xoşlayırlar. Futbol, basketbol və voleybol sizin üçündür. Oyunlarınıza ehtiyac duyanların sayı isə kifayət qədərdir.

**Buğa**
Səs-küyü xoşlayan buğalar hər bir idman növündə yüksək nailiyyət əldə etməyə meyllidirlər. Ətrafdakılar və həmkarlarınız tərəfindən qazandığınız etimad sizə əlavə stimul verə bilər.

**Əkizlər**
İmkan daxilində evinizdə idmanla məşğul olmaq üçün şərait yaratmağınız vacibdir. Əkizlər bürcündən olanlar səhər qaçışı ilə məşğul olsalar, daha yaxşı olar.

**Şir**
Bu həftə ulduzlar şirlərə idmandan bir qədər kənar gəzməyi məsləhət görürlər. Təbiətin qoynuna çıxsanız, bu, səhhətinizə xeyir verəcək. Ətrafdakılar və həmkarlarınızla bir az mehriban olun. Əsəblərinizi cilovlayın.

**Xərçəng**
Diqqətli olmalısınız. Ətrafınızda baş verənlərə bir qədər soyuqqanlı yanaşın. Məşqlərinizi davam etdirin. Çünki sizi qarşıda böyük yarışlar gözləyir.

**Qız**
Bu həftə rəqabətə girməyiniz məsləhət deyil. Bir az təmkinli olun. Heç kimə pis üz göstərməyin və səbirli olun. Belə olan halda hamı sizə hörmət edər. İdman sahəsində irəliləyişlər olacaq.

**Tərəzi**
Bu həftə sizin üçün qaranlıq qalacaq çox az məsələ ola bilər. Yarış zamanı ağıllı və təmkinli olsanız, böyük uğurlar əldə edəcəksiniz.

**Əqrəb**
Böyük səbir sahibi olduğunuz üçün hamı sizə hörmət edəcək. İntellektual idmana üstünlük verin. Eyni zamanda, digər idman növlərinə də hörmətlə yanaşın. Amma özünüzü yormayın, çünkü qarşıda sizi yarışlar gözləyir. Bu, sizin həftənizdir.

**Oxatan**
İdman formanızı saxlamaq üçün əziyyət çəkəcəksiniz. Amma bunu etməyə dəyməz. Səhər qaçışı ilə məşğul olsanız hər şey qaydasına düşəcək.

**Dolça**
Səhhətinizə fikir verin. İdmandan kənar gəzin. Bu, sizin xeyrinizə olacaq. Əks halda həkimə müraciət etməli olacaqsınız.

**Oğlaq**
Bu həftə sizin enerjiniz həddindən artıq çox olacaq. İmkan daxilində məşqlərin vaxtını artırın və lazımı qədər məşğul olun. Oğlaq bürcündən olanlar atletika, futbol və hokkeylə məşğul olsalar, daha yaxşı olar.

**Balıqlar**
Balıqlar bu həftə o qədər də fəal olmayacaqlar. Amma idmanla müntəzəm məşğul olmaq lazımdır. Bu bürc altında doğulanlar həftənin sonuna qədər daha çox yüngül idman hərəkətlərinə üstünlük verəcəklər.



*"Olimpiya dünyası" qəzetinin arxivindən*
("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)

**olimpnews.az - sizin saytınız**




## Olimpiya çempionu titullarının sayını artırdı

Orta çəki dərəcəsində WBA, WBC, İBF və ikiqat Olimpiya çempionu Klaressa Şilds WBO çempionu Kristina Hammeri məğlub edərək daha bir versiyada dünya çempionu tituluna layiq görülüb.

Xanım idmançılar arasında təkbətək döyüş Atlantik-Siti şəhərində keçirilib. Hakimlər qələbəni yekdilliklə Olimpiya çempionuna veriblər. Bu Şildsin məğlubiyyətsiz 9-cü qələbəsi kimi qeyd edilib. Onun rəqibi isə indiyədək 24 döyüşdə qalib gəlib, bir dəfə isə məğlub olub.

## Etdiyi hərəkət cəzasız qalmadı

İngiltərənin "Bernli" klubunun hücumçusu Eşli Barns Premyer Liqanın oyununda rəqib futbolçunu öpdüyü üçün cəzalandırılıb.

Barnsın "Kardiff"in oyunçusunu öpməsini əks etdirən video LFC-nin Twitter səhifəsində yerləşdirilib.

Oyunun birinci hissəsinin sonunda Barns rəqib futbolçu ilə mübahisə etməyə başlayıb və gözlənilmədən onu burnundan öpüb. Matçın hakimi qeyri-idman hərəkətinə görə futbolçunu sarı vərəqə ilə cəzalandırıb.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.